RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 76 (10096) 2 may 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi



## Prezident İlham Əliyev Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 1-də Bakı şəhərinin Səbail və Yasamal rayonlarını əhatə edən İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər.

2

## Azərbaycan idman sahəsində də qalib ölkədir

Prezident İlham Əliyevin Avropa çempionatında komanda hesabında çempion olmuş güləşçilərlə görüşü bu siyasətin növbəti təzahürü idi. Səmimi və işgüzar mühitdə keçən görüşdə dövlət başçısı idmançıların qazandığı uğurun əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir". Bu fikir bir daha Azərbaycanın artıq Avropa idman məkanında lider mövqeyə yüksəldiyini təsdiq edir.



Dövlətimizin başçısı çıxışında müasir dövrdə idmanda rəqabətin daha da sərtləşdiyini bildirmişdir: "Bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir… mübarizə də çox gərgin idi". Belə bir şəraitdə qazanılan qələbə isə idmançılarımızın peşəkarlığının və hazırlıq səviyyəsinin göstəricisidir. Dövlət başçısının sözləri ilə desək, "bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər".

7

## *Prezident İlham ƏLİYEV:*

## "Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər"

"Hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir, sevinir".

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin "X" sosial şəbəkə hesabında yer alıb.

"Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər", - paylaşımda qeyd edilib.



## Şəhərlərin gələcəyi iki həftə sonra Bakıda yazılacaq

Son illər Azərbaycan bir sıra mühüm beynəlxalq tədbirlərə evsahibliyi edərək qlobal gündəlikdə fəal iştirakını nümayiş etdirir. Bu baxımdan 2024-cü ilin noyabrında COP29-un Bakıda keçirilməsi xüsusi əhəmiyyət daşıyırdı. Həmin mötəbər toplantı iqlim dəyişmələrinə qarşı ortaq həll yollarının müzakirəsi üçün geniş imkan yaratdı. COP29 Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, ölkənin ekoloji məsələlərə həssas yanaşdığını və dayanıqlı inkişaf istiqamətində ciddi addımlar atdığını göstərdi. Qlobal tədbirdə qəbul olunan qərarlar və aparılan müzakirələr bütövlükdə dünya üçün əhəmiyyətli oldu.




Məhz belə bir uğurlu təcrübənin davamı kimi WUF13-ün də Bakıda keçirilməsi təbii ki, qanunauyğunluqdur. Bu forum COP29-dan sonra ən böyük və strateji əhəmiyyətli qlobal platformalardan biri hesab olunur. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın şəhərsalma və azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirdiyi genişmiqyaslı işlərin beynəlxalq miqyasda tanınmasına yeni imkanlar açır. Bu, ölkəmizin qlobal səviyyədə də urban inkişaf proseslərinə töhfə verən iştirakçıya çevrildiyini göstərir. Beynəlxalq tədbir Azərbaycan üçün yalnız əldə olunmuş uğurları nümayiş etdirmək fürsəti deyil. Bu, eləcə də iqlim dəyişmələri, şəhər mühitinin effektiv idarə olunması və dayanıqlı inkişaf məqsədləri istiqamətində yeni tərəfdaşlıqların qurulması, beynəlxalq təcrübənin mənimsənilməsi və gələcəyə yönəlik strateji addımların müəyyənləşdirilməsi baxımından mühüm platformadır.

11

## Azərbaycan Respublikası Milli Məclisi Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar qərar qəbul etmişdir

Bu gün demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamenti Azərbaycanofob və islamofob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrilmişdir. Əsas narahatlıq doğuran məqamlardan biri də budur ki, bu qurum yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına maneə törətmir. Bu həm də regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi istiqamətində atılan addımlara qarşı çıxır, revanşist qüvvələri təhrik etməklə regionumuzu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir. Bütün bunlar isə Avropa Parlamenti ilə əməkdaşlığın mahiyyətini heçə endirir.



Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun.

3. Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

5

## Azərbaycanın "Elm Sarayı"

### Bugünkü "Akademiya şəhərciyi"ni memar Mikayıl Hüseynov dövrün "qənaət" tələblərinə boyun əyməyərək ərsəyə gətirmişdir



AMEA-nın əsas binasının xarici görünüşü Bakının memarlıq simasında milli klassisizm üslubunun zirvəsi hesab olunur. Memar Mikayıl Hüseynov bu binanı layihələndirərkən həm qədim Şərq saraylarının əzəmətini, həm də Avropanın monumental memarlıq prinsiplərini birləşdirmişdir. Mütəxəssislər yazırlar ki, binanın xarici görünüşünü səciyyələndirən əsas elementlər onun monumental portikləri və sütunlarıdır. Binanın ən diqqətçəkən hissəsi onun mərkəzi girişidir.

11

## Sülh, yoxsa xəstə təfəkkür

### Erməni cəmiyyəti bunlardan hansını seçəcək?



Ötən ilin oktyabrında Prezident İlham Əliyev Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırıldığı barədə məlumat verərkən demişdir: "Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

Azərbaycanın sülhməramlı liderliyinin ən mühüm göstəricilərindən biri də "Sülh körpüsü" təşəbbüsüdür. Belə ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

9

## Bakı lobbilərin oyuncağına çevrilmiş Avropa Parlamenti ilə əlaqələri kəsdi



Son zamanlar Avropa Parlamentinin Azərbaycana qarşı apardığı sistemli kampaniya tənqid hüdudlarını aşaraq, açıq düşmənçilik müstəvisinə keçdi. Xüsusilə son dövrlərdə qəbul edilən qətnamələr artıq hüquqi və siyasi çərçivələri aşaraq, birbaşa şantaj və təzyiq xarakteri aldı. Təhrif olunmuş informasiyalar üzərində qurulan bu sənədlər parlamentlərarası dialoqun ruhunu məhv etdi, tərəflər arasındakı etimad mühitini dağıtdı. Ölkəmizin suverenliyini hədəf alan, Qarabağdakı separatçı meyilləri dolayı yolla dəstəkləyən və dövlətimizin beynəlxalq imicinə qəsd edən hər bir addım bu qurumların ermənipərəstliyini sübuta yetirdi. O baxımdan, münasibətlərin rəsmi səviyyədə kəsilməsi Azərbaycanın dövlət qüruru və suveren hüquqlarının qorunması üçün atılan zəruri addım idi.

5

## Erməni lobbisinin gizli təsir rıçaqları ifşa olunur

### Avropa institutlarının keçmiş təmsilçiləri çirkin əməllərini, korrupsiya oyunlarını özləri etiraf edirlər



Erməni lobbisinin birbaşa maliyyə dəstəyi və sifarişi ilə idarə olunan genişmiqyaslı kampaniyanın hədəfində təkcə Azərbaycan yox, Cənubi Qafqazda formalaşmaqda olan kövrək sülh dayanır. Çünki sülh erməni diasporunun "ərazi iddiaları" və qondarma "soyqırımı" kimi məsələlərdən faydalanmasını sual altında qoyur, bundan gəlir əldə edən lobbi, siyasətçilər, media rəhbərləri, Avropa strukturlarında müxtəlif vəzifə daşıyan şəxslərin də qazancına təhlükə yaradır.

9

# Paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi

## Prezident İlham Əliyev Bakının İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak edib








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 1-də Bakı şəhərinin Səbail və Yasamal rayonlarını əhatə edən İslam Səfərli küçəsinin yenidənqurmadan sonra açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdi.

Bildirilib ki, Azərbaycan prospektindən başlayaraq Nigar Rəfibəyli küçəsinin bir hissəsi də daxil olmaqla, İslam Səfərli küçəsi boyunca Mirzəağa Əliyev küçəsinədək olan ərazi tam şəkildə abadlaşdırılıb. Bu ərazidən Mərkəzi Parka piyadaların rahat hərəkəti üçün keçid təmin olunub.

İslam Səfərli küçəsi ilə kəsişən 8 küçədə, eyni zamanda Təbriz Xəlilbəyli və Mirzə İbrahimov küçələrinə qədər olan hissədə abadlıq işləri yerinə yetirilib. Abadlaşdırılan küçələrin ümumi uzunluğu 1350 metrdir. Bu küçələrdə su və çirkab sularının axıdılması xətləri tamamilə yenilənib, qaz xətləri yeraltı sistemlə əvəzlənib. Bundan




başqa, küçələrdə yerləşən müxtəlif təyinatlı binalarda yenidənqurma və bərpa işləri görülüb, sakinlərin və şəhərimizin qonaqlarının istirahəti üçün lazımi şərait yaradılıb, oturacaqlar qoyulub, geniş yaşıllaşdırma işləri həyata keçirilib.

Layihənin icrası piyadalar üçün Fəvvarələr meydanından birbaşa Qış parkına çıxış imkanı yaradır. Burada XIX əsrin sonu - XX əsrin əvvəllərində inşa edilmiş yerli əhəmiyyətli memarlıq abidələri də mövcuddur. Bu isə ərazinin istər yerli sakinlər, istərsə də qonaqlar üçün cəlbediciliyini daha da artırır.

Avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi ərazidəki mağaza, kafe və restoranların fəaliyyətinə müsbət təsir edəcək, kiçik bizneslər üçün yeni imkanlar yaradacaq.

Qeyd edək ki, bu gün paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bakının sosial infrastrukturunun müasirləşdirilməsi, sakinlərin və şəhərə gələn qonaqların rahatlığının təmin edilməsi istiqamətində indiyədək ardıcıl tədbirlər görülüb və bu layihələr hazırda da davam etdirilir. Təsadüfi deyil ki, paytaxtımıza gələn qonaqlar şəhərin gözəlliyinə, təmizliyinə valeh olduqlarını həmişə vurğulayırlar. Bakıda müasir şəhərsalma tendensiyalarına uyğun atılan addımların tərkib hissəsi olan mikromobillik həllərinin uğurla icrası, avtomobil yollarının piyada yolları ilə əvəzlənməsi həm sakinlərin, həm də turistlərin rahatlığına xidmət edir. İnsanların sıx olduğu yerlərdə belə layihələrin icrası, eyni zamanda son dövrlərdə həyata keçirilən şəhərsalmayönümlü planlaşdırmaya da töhfə verir. Beləliklə, paytaxtın davamlı inkişaf strategiyasının mühüm elementi olan bu addımlar Bakının həm müasir, həm də piyadalar üçün rahat şəhər kimi inkişafında xüsusi rol oynayır.

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanunu) 308-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "və ya büdcədənkənar dövlət fondlarının" sözləri ", büdcədənkənar dövlət fondlarının və ya dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin.

2. 308-1.1-ci maddə üzrə:

2.1. dispozisiyada "və ya büdcədənkənar dövlət fondlarının" sözləri ", büdcədənkənar dövlət fondlarının və ya dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

2.2. sanksiyada "doqquz min manatdan on üç min manatadək miqdarda" sözləri "cinayətin predmetinin dəyərinin (təyinatından kənar istifadə olunan vəsaitin) yüz faizi miqdarında" sözləri ilə əvəz edilsin.

3. 308-1.2-ci maddənin sanksiyasına "üç ilədək" sözlərindən əvvəl "cinayətin predmetinin dəyərinin (təyinatından kənar istifadə olunan vəsaitin) yüz faizi miqdarında cərimə edilməklə, üç ilədək müddətə azadlığın məhdudlaşdırılması, yaxud" sözləri əlavə edilsin.

4. "Qeyd" hissəsinin mətni 1-ci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

"2. Bu maddədə "dövlətə məxsus olan hüquqi şəxslər" dedikdə bu Məcəllənin 195-2-ci maddəsinin "Qeyd" hissəsindəki anlayış nəzərdə tutulur.

3. Bu maddədə nəzərdə tutulmuş əməlləri ilk dəfə törətmiş şəxs cinayətin predmetinin dəyərini (təyinatından kənar istifadə olunan vəsaiti) tamamilə ödədikdə cinayət məsuliyyətindən azad olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2026-cı il*

# Ə.N.Fərəcovun 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ədalət Nurulla oğlu Fərəcov 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 125** **Bakı şəhəri, 1 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1196 (Cild I) ilə təsdiq edilmiş "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Gənclər evi" bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. "Gənclər evi" sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyətləri yarada və ya onlarda iştirak edə bilər.".

2. 2.6-cı bəndə "işin həcminə" sözlərindən sonra ", sahibkarlıq fəaliyyətindən əldə edilmiş gəlirlərə" sözləri əlavə edilsin.

3. 2.11.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.11.4-cü yarımbənd əlavə edilsin:

"2.11.4. sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# Azərbaycan Avropa Parlamenti ilə əməkdaşlıq əlaqələrini dayandırır

**Mayın 1-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova 9 məsələnin müzakirə ediləcəyini bildirib. Qeyd olunub ki, birinci məsələ Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti barədədir.**

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən xarici siyasətin dövlətimizi beynəlxalq birliyin nüfuzlu bir üzvünə çevirdiyini deyən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, biz xarici siyasətimizdə dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət, daxili işlərinə qarışmama prinsiplərini rəhbər tutur, beynəlxalq qurumlar ilə konstruktiv iş birliyini inkişaf etdiririk. Bu baxımdan ölkəmiz Avropa Parlamenti ilə əməkdaşlıq mexanizmlərini həmişə konstruktiv dialoq platforması kimi nəzərdən keçirib.

Bu da qeyd edilməlidir ki, Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır, qitənin enerji təhlükəsizliyinə böyük töhfə verir. Strateji infrastruktur layihələrinin reallaşdırılması, nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi yolunda atılan addımlar, regional sabitliyin təmin edilməsində fəal iştirak ölkəmizin beynəlxalq münasibətlər sistemində məsuliyyətli və konstruktiv rol oynadığını təsdiq edir. Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər möhkəm təmələ əsaslanır və zəngin potensiala malikdir.

Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, ölkəmizdə və regionumuzda baş verən proseslərə Avropa Parlamentinin yanaşmalarında mövcud olan problemlər böyük narazılıq və narahatlıq doğurur. "Və bu proses uzun illərdir ki, davam edir. Avropa Parlamentinin ölkəmizlə bağlı qəbul etdiyi qətnamələr birtərəfli və qərəzli xarakter daşıyır, ikili standartlara əsaslanır. Bu sənədlər real vəziyyəti əks etdirmir və çox vaxt Azərbaycanın qanuni maraqlarını pozmağa yönəlmişdir.

Görünən budur ki, Avropa Parlamentinin bu fəaliyyəti sistemli xarakter daşıyır. Avropa demokratiyasını təmsil etmək iddiasında olan bu qurumun Azərbaycana qarşı fəaliyyətlə məşğul olan lobbi qruplarının və müxtəlif maraq dairələrinin əlində alətə çevrilməsi təəssüf doğurur" - deyə Sahibə Qafarova bildirib.

Spiker xatırladıb ki, bir neçə il bundan əvvəl Azərbaycanın Avropa Parlamenti ilə münasibətlərində böhran ciddi siyasi qərarların qəbul edilməsi ilə nəticələnmişdi: "2015-ci ildə Azərbaycan Parlamenti Avropa Parlamentində ölkəmiz barəsində sistemli və davamlı şəkildə aparılan qarayaxma kampaniyasına cavab olaraq bu təşkilatla qarşılıqlı əlaqəni dayandırmağa məcbur olmuşdu. Milli Məclis Avropa Parlamentindən tələb etmişdi ki, Azərbaycana münasibətdə obyektiv mövqe tutsun və bu yanaşmanı real addımlarla nümayiş etdirsin.

Bu qərar qəbul edildikdən sonra Avropa Parlamenti ikitərəfli dialoqu bərpa etmək məqsədilə bir sıra addımlar atmış, o cümlədən öz deputatlarından ibarət səlahiyyətli nümayəndə heyətini Azərbaycana göndərmişdi.

Avropa Parlamentinin bu səylərindən sonra Milli Məclis əməkdaşlıq maraqlarını əsas tutaraq 2016-cı ilin sentyabr ayında münasibətlərin bərpasına dair qərar qəbul etmişdi".

Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, ötən 10 il Avropa Parlamentinin Azərbaycan əleyhinə hərəkətlərdən əl çəkmək niyyətində olmadığını göstərmişdir: "İkinci Qarabağ müharibəsindən sonra təşkilatın fəaliyyətində anti-Azərbaycan ritorikası daha da güclənmişdir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın otuzillik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi Avropa Parlamentinin Azərbaycana qarşı təxribatlarının intensivliyinin artmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 13 qətnamə qəbul etmişdir.

Bütün bunlar həmin qurumun, əslində, hansı meyarlar əsasında fəaliyyət göstərdiyinin əsas sübutu sayıla bilər.

Şübhə yoxdur ki, Avropa Parlamentinin Azərbaycan əleyhinə məqsədyönlü fəaliyyəti ikitərəfli münasibətlərdə etimad mühitini pozmuş, eyni zamanda konstruktiv dialoq və əməkdaşlıq perspektivlərinə sarsıdıcı zərbə vurmuşdur. Bu da aydındır ki, təşkilatın nümayiş etdirdiyi yanaşma regionda sülh və sabitlik yaradılmasına yönələn səylərə maneçilik törətməyə yönəlmişdir".

Spiker Sahibə Qafarova çıxışının sonunda bildirib ki, Milli Məclis Avropa Parlamentinin dövlətimizə qarşı qərəzli fəaliyyətinə səssiz qala bilməz və bu məsələ barəsində qəti mövqeyini bildirəcəkdir.

Sonra məsələ ətrafında müzakirələr aparılıb. Milli Məclis Sədrinin müavini Musa Qasımlı, parlamentin komitə sədrləri Zahid Oruc, Şahin İsmayılov, Səməd Seyidov, Anar İsgəndərov, deputatlar Bəhruz Məhərrəmov, Zaur Şükürov, Elşən Musayev, Vüqar Bayramov, Azay Quliyev, Razi Nurullayev, Hikmət Məmmədov çıxış ediblər. Deputatlar Avropa Parlamentinin "Ermənistanda demokratik dayanıqlığın dəstəklənməsi" adlı qətnamə qəbul edərək, növbəti dəfə Azərbaycanı hədəfə aldığını, ölkəmizə qarşı səslənən riyakar iddiaların əsassız, mövcud reallıqdan uzaq olduğunu, sənəddə göstərilənləri qətiyyətlə rədd etdiklərini söyləyiblər. Qeyd edilib ki, qurumun regionda postmüharibə dövründə formalaşan sülh səylərini dəstəkləmək əvəzinə, qarşıdurma mövqeyi sərgiləməsi sülh prosesinə, Azərbaycan-Avropa İttifaqı münasibətlərinə mənfi təsir göstərir.

Nəzərə çatdırılıb ki, Azərbaycan xoşməramlı niyyət nümayiş etdirərək məhbusların böyük əksəriyyətini Ermənistana geri qaytarıb. Hazırda həbsdə olanlar isə hərbi əsir deyil, terror, sabotaj və müharibə cinayətləri daxil olmaqla ağır cinayətlərə görə barələrində məhkəmə hökmü olan şəxslərdir. Millət vəkilləri qətnamədə Qarabağ ermənilərinin maneəsiz və ləyaqətli şəkildə geri qayıtması barədə cəfəng çağırışları qəbul etmədiklərini söyləyiblər. Vurğulanıb ki, Azərbaycan dəfələrlə konstitusiyaya və beynəlxalq öhdəliklərə uyğun olaraq erməniəsilli sakinlərin hüquqlarını, təhlükəsizliyini və reinteqrasiyasını təmin etməyə hazır olduğunu bildirib.

Qeyd edilib ki, sənəddə bir milyon qaçqın və məcburi köçkün olan azərbaycanlıların hüquqlarını görməzdən gələrək, erməni sakinlərin qayıtmasının selektiv şəkildə göstərilməsi qərəzli yanaşmanın bariz nümunəsidir, həmçinin mədəni irsin məhv edilməsi ilə bağlı iddialar riyakarlıqdır. Ölkəmizdə işğaldan azad edilmiş ərazilərdə və digər bölgələrdə ayrı-seçkiliyə yol verilmədən müxtəlif tarixi və dini abidələrin qorunduğu nəzərə çatdırılıb. Təəssüflə bildirilib ki, Azərbaycan ərazilərinin uzun müddət işğal altında olduğu müddətdə Avropa Parlamenti tərəfindən hər hansı qətnamə qəbul edilməyib. Bu gün isə artıq regionda sülhün formalaşdığı, əməkdaşlıqla bağlı imkanların yarandığı bir zamanda Avropa Parlamentinin aktivləşdiyinin, qərəzli qətnamələr qəbul etməsinin şahidi oluruq.

Qeyd olunub ki, Avropa dövlətlərinin liderləri Azərbaycan Prezidenti ilə görüşə can atdıqları bir şəraitdə, parlamentarilərin belə qətnamələri onları gözdən salır. Onlar Azərbaycanın qazandığı böyük Zəfəri qəbul edə bilmirlər. Ötən illərin təcrübəsi göstərir ki, Azərbaycanla hədə-qorxu, qərəzlə danışmağın perspektivi yoxdur. Azərbaycan yalnız bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa üstünlük verir.

Millət vəkilləri hazırda Azərbaycanda güclü təməllərə əsaslanan, sarsılmaz iqtidar-xalq birliyinin olduğunu bildiriblər. Azərbaycanın müstəqil, suveren dövlət olaraq qarşılıqlı hörmət əsasında əlaqələri qurmağa həmişə hazır olduğunu söyləyiblər. Qeyd edilib ki, bu gün Avropanın siyasi liderləri Azərbaycan Prezidenti ilə görüşlər keçirir, dövlət başçımızın gördüyü işləri geniş ictimaiyyətə təqdim edərək, ölkəmizin Avropa üçün enerji, logistika, təhlükəsizlik baxımından əhəmiyyətli tərəfdaş olduğunu vurğulayırlar.

Sonra parlamentin Sədri Sahibə Qafarova bildirib ki, deputatların çıxışlarında Milli Məclisin qərarının qəbul edilməsinin zəruriliyi qeyd olunub. Spiker deyib ki, qərarın mətnini hazırlamaq üçün komissiya yaradılmalıdır. Təklif var ki, komissiyanın tərkibinə Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, komissiyanın üzvləri olaraq deputatlar Fazil Mustafa, Mübariz Qurbanlı, Tahir Mirkişili, Tural Gəncəliyev, Jalə Əliyeva və Səbinə Xasayeva daxil edilsin.




Müzakirələrin yekununda Milli Məclisin Sədri məsələnin kifayət qədər müzakirə edildiyini, komissiyanın öz işini bitirdiyini və qərarın mətninin hazır olduğunu söyləyib.

Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Qərarını oxuyub. *(Qərarın mətni qəzetin bugünkü nömrəsində dərc edilib.)*

Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti 3 məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və "Normativ-hüququ aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. Bildirib ki, regional müstəvidə çoxtərəfli əməkdaşlığa xüsusi önəm verən Azərbaycan, həmçinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixində Minsk şəhərində imzalanmış Konvensiyada iştirak edir. Ölkəmiz bu Konvensiyaya 1 sentyabr 1995-ci ildə qoşulub.

Diqqətə çatdırılıb ki, hazırda müzakirəyə təqdim edilən Konvensiyaya dəyişikliklər edilməsi barədə Protokol 2025-ci il iyunun 26-da imzalanıb. Sənəd iştirakçı dövlətlərdə yetkinlik yaşına çatmayan uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmrlərinin tanınmasını təşviq etmək məqsədi daşıyır. Qeyd olunub ki, Konvensiyanın hüquqi yardımın həcmini müəyyən edən 6-cı maddəsinə "yetkinlik yaşına çatmayan uşaqlara görə alimentin tutulmasına dair məhkəmə əmri" sözləri əlavə edilir. Həmçinin qərarın tanınmasından və icrasından imtinanı nəzərdə tutan 55-ci maddəyə "məhkəmə əmri çıxarıldığı halda - borcluya məhkəmə əmrinin (onun surətinin) həmin məhkəmə əmrinin çıxarıldığı Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq təqdim edilmədiyi və ya göndərilmədiyi halda" məzmununda yeni abzas əlavə edilir. Protokol Konvensiyanın 83-cü maddəsinə əsasən iştirakçılar tərəfindən ratifikasiya olunmalı və 3 dövlət depozitariyaya ratifikasiya fərmanlarını təqdim etdikdən sonra qüvvəyə minir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Məmmədova məsələ barədə bu komitənin rəyini açıqlayaraq bildirib ki, qanun layihəsinin əsas məqsədi dövlətlər arasında hüquqi əməkdaşlığın gücləndirilməsidir. Vətəndaşların müxtəlif səbəblərdən fərqli ölkələrdə yaşadığını nəzərə alaraq, hüquqi məsələlərin beynəlxalq səviyyədə effektiv həlli xüsusi əhəmiyyət kəsb edir. O, uşaqların hüquqlarının qorunmasına yönəlmiş dəyişikliklərdə aliment öhdəlikləri ilə bağlı məhkəmə qərarlarının digər dövlətlərdə tanınmasının və icrasının sadələşdirildiyini qeyd edib.

Müzakirələrdə çıxış edən parlamentin komitə sədrləri Hicran Hüseynova, Siyavuş Novruzov, deputat Bəxtiyar Əliyev sənədin əhəmiyyəti barədə öz fikirlərini bölüşüblər.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra deputat Nizami Səfərov "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, 2002-ci il 7 oktyabr tarixində Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasında imzalanmış Konvensiyaya Azərbaycan Respublikası 2004-cü il yanvarın 13-də qoşulub. Kişinyov Konvensiyasına təklif edilən dəyişikliklərin Minsk Konvensiyasına təklif olunan dəyişikliklərlə eyni olduğu qeyd edilib.

Millət vəkili diqqətə çatdırıb ki, Kişinyov Konvensiyasının 120-ci maddəsinin 3-cü bəndinə görə "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Minsk Konvensiyası və ona əlavə edilmiş 1997-ci il 28 mart tarixli Protokol Kişinyov Konvensiyasının iştirakçısı olan dövlətlər arasında öz qüvvəsini itirir. Burada istisna 120-ci maddənin 4-cü bəndində nəzərdə tutulur və göstərilir ki, Minsk Konvensiyasının və ona əlavə edilmiş Protokolun Kişinyov Konvensiyasının iştirakçısı olan dövlətlər və Konvensiyanın qüvvəyə minmədiyi iştirakçı dövlətlərlə münasibətlərdə tətbiqi davam edir. Bildirilib ki, Azərbaycan Respublikası Gürcüstan, Moldova, Türkmənistanla münasibətdə Minsk Konvensiyasını tətbiq etməkdə davam edəcək, MDB-nin digər iştirakçıları olan Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya Federasiyası, Tacikistan ilə Kişinyov Konvensiyası rəhbər tutulacaq.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Məmmədova təqdim olunan sənəd barədə bu komitənin rəyini açıqlayıb. O deyib ki, qanun layihəsi beynəlxalq hüquqi əməkdaşlığın inkişafının daha müasir mərhələsini əks etdirir və dövlətlər arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Millət vəkili bildirib ki, qanun layihəsinin qəbulu hüquqi məlumat mübadiləsinin effektivliyini artıracaq, məhkəmə qərarlarının tanınması və icrası prosedurunu sadələşdirəcək, səlahiyyətli orqanların koordinasiyalı əməkdaşlığını təmin edəcək.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Nizami Səfərov "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini də təqdim edib. Bildirib ki, 2025-ci il 26 iyun tarixində imzalanmış Saziş tərəf dövlətlərin məhkəmə aktlarının, səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının icrası zamanı insan və vətəndaş hüquqlarının və azadlıqlarının, dövlət və digər orqanların və təşkilatların qanuni mənafelərinin müdafiəsini təmin etmək, tərəflərin qanunvericiliyi ilə MDB iştirakçısı olan dövlətlərin həmin aktların məcburi icrası üzrə funksiyalarının həyata keçirilməsi həvalə edilmiş orqanlarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək məqsədi daşıyır.

Saziş icra sənədlərinin məcburi icra prosedurlarını həyata keçirərkən tərəflərin məcburi icra orqanlarının məlumat mübadiləsi üzrə əməkdaşlığının əsas istiqamətlərini müəyyən edir. Burada məqsəd icra sənədlərinin məcburi icrasının təmin olunması, habelə onların icrası zamanı hüquqi yardım mexanizmlərindən istifadənin səmərəliliyinin artırılmasıdır. Sənədə əsasən, tərəflər əməkdaşlıq çərçivəsində sorğu əsasında fiziki və hüquqi şəxslərdən, dövlət orqanlarından və vəzifəli şəxslərdən məlumatların, arayışların, sənədlərin və ya onların müvafiq qaydada təsdiq edilmiş surətlərinin alınmasını təmin edirlər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Daha sonra iclasda Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Spiker nəzərə çatdırıb ki, məsələ ilə bağlı iclasda Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, komitənin sədr müavini Natiq Şirinov, Baş İdarənin rəisi Rövşən Namazov və idarə rəisi Tural Həsənli iştirak edirlər.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov layihə barədə məlumat verərək bildirib ki, sənəd yalnız normativ bazanın yenilənməsini deyil, bütövlükdə gömrük sisteminin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edən konseptual yanaşmanı əks etdirir. Qeyd olunub ki, layihə Gömrük Məcəlləsini beynəlxalq ticarət münasibətlərinin müasir tələblərinə uyğunlaşdırır və nəticə etibarı ilə gömrük sistemində yeni bir səhifə açır.

Bildirilib ki, gömrük qanunvericiliyinin yenilənməsi zərurəti həyata keçirilən genişmiqyaslı institusional islahatlardan irəli gəlir və gömrük sistemində nəzərdə tutulan dəyişikliklər özlüyündə məqsəd deyil, səmərəli iqtisadi idarəetmənin qurulması, müasir gömrük inzibatçılığının formalaşdırılması, eləcə də dayanıqlı iqtisadi inkişafın təmin olunması baxımından mühüm vasitə kimi çıxış edir. Qeyd olunub ki, təklif edilən dəyişikliklərin əsas fəlsəfəsi gömrük prosedurlarının liberallaşdırılmasına, biznes mühitinin yaxşılaşdırılmasına və ticarətin asanlaşdırılmasına yönəlib.

Qeyd edilib ki, təqdim olunan layihə gömrük sistemində bir sıra mühüm yenilikləri nəzərdə tutur və ilk növbədə gömrük tənzimlənməsinin fəlsəfə və konsepsiyasını yeniləyir. Əvvəlki model əsasən sərhəddə nəzarətə söykənirdisə, yeni yanaşma ticarətin asanlaşdırılması ilə effektiv idarəetmə, tənzimləmə və nəzarət arasında balansın təmin olunmasına yönəlib. Bu modeldə nəzarət zəiflədilmir, əksinə daha hədəfli və səmərəli şəkildə həyata keçirilir. Diqqətə çatdırılıb ki, risk əsaslı yanaşma, postaudit mexanizmləri və elektron məlumat mübadiləsinin tətbiqi nəticəsində sərhəddə fiziki yoxlamaların həcmi azalır, ləngimələr aradan qaldırılır və qanunvericiliyə riayət daha effektiv təmin edilir. Eyni zamanda layihə çərçivəsində gömrük sistemi üzrə anlayışlar yenilənir, onların əhatə dairəsi genişləndirilir və beynəlxalq standartlara uyğunlaşdırılır.

Əsas yeniliklərdən biri gömrük təmsilçiliyi institutunun modernləşdirilməsidir. Klassik broker modelindən fərqli olaraq layihədə birbaşa və dolayı gömrük təmsilçiliyi mexanizmləri müəyyən edilir. Bu yanaşma xidmət bazarında rəqabətin artmasına, sahibkarların seçim imkanlarının genişlənməsinə, xidmət keyfiyyətinin yüksəlməsinə və xərclərin azalmasına şərait yaradır. Eyni zamanda elektron prosedurların genişləndirilməsinə xidmət edən tətbiqlər gömrük rəsmiləşdirilmələrini sürətləndirən, şəffaflığı artıran mühüm innovativ dəyişikliklər kimi dəyərləndirilib.

Azər Əmiraslanov deyib ki, layihənin əsas hədəflərindən biri ölkənin logistika və tranzit imkanlarının genişləndirilməsidir. Təklif olunan dəyişikliklər tranzit prosedurlarının sadələşdirilməsini, daşımaların daha sürətli və fasiləsiz həyata keçirilməsini təmin edir. Dəyişikliklər Azərbaycanın tranzit imkanlarının genişlənməsinə, yükdaşımaların həcminin artmasına və ölkənin regional logistik mərkəz kimi rolunun daha da güclənməsinə hesablanıb.

Layihənin müzakirəsində komitə sədrləri Zahid Oruc, Əli Hüseynli, deputatlar Rövşən Muradov, Elçin Mirzəbəyli, Razi Nurullayev, Hikmət Məmmədov çıxış ediblər, dəyişikliklər haqqında fikirlərini və qeydlərini bildiriblər.

Komitə sədri Azər Əmiraslanov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov deputatların söylədikləri fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Bildirilib ki, hərbi qulluqçular xidmət vəzifələrini yerinə yetirərkən, döyüş əməliyyatları, eləcə də digər fövqəladə hallarda müxtəlif xəsarətlər alırlar və ya digər risklərlə üzləşirlər. Vurğulanıb ki, bu kimi vəziyyətlərdə hərbi qulluqçuların şəxsiyyətinin operativ müəyyən edilməsi, barələrində zəruri məlumatların əldə olunması həyati əhəmiyyət daşıyır. Bu səbəbdən də qanunvericiliyə hərbi qulluqçuların fərdi identifikasiya mexanizminin - "şəxsi jeton" anlayışının və ondan istifadə qaydalarının əlavə edilməsi təklif olunub.

Arzu Nağıyev layihədə əksini tapan dəyişikliyin digər mühüm istiqamətinin çağırışaqədərki hazırlıq sahəsinin təkmilləşdirilməsi olduğunu söyləyib. Belə ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna əlavə edilən 9.4-cü maddəyə əsasən, gənclərin çağırışaqədərki hazırlığı ilə bağlı əsasnamənin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təsdiq olunması nəzərdə tutulur. Vurğulanıb ki, bu dəyişiklik çağırışaqədərki hazırlıq sahəsində vahid və sistemli yanaşmanın formalaşdırılmasına, idarəetmədə çevikliyin artırılmasına və məsuliyyət bölgüsünün daha dəqiq müəyyən olunmasına, nəticə etibarilə gənclərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsinə xidmət edəcək.

Komitə sədri Siyavuş Novruzovun məsələ ilə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Vətəndaşların müraciətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verib. Diqqətə çatdırılıb ki, müzakirəyə çıxarılan qanun layihəsinə edilən dəyişikliklər dövlət-vətəndaş münasibətlərinin daha əlçatan, şəffaf və nəticəyönümlü təşkilinə, həmçinin müasir idarəetmə tələblərinə uyğunlaşdırılmasına xidmət edir. Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən müraciətlərin hüquqi əsaslara daxil edilməsi rəqəmsal idarəetmənin normativ bazasını genişləndirir. Sənəd əyani vətəndaş qəbullarını nəinki istisna etmir, əksinə fiziki görüş və ünsiyyətin daha operativ, sistemli və effektiv təşkilinə əlavə imkanlar yaradır və bu istiqamətdə rəqəmsal və ənənəvi kommunikasiya formalarını paralel şəkildə gücləndirir.

Dəyişiklikləri maddələr üzrə təqdim edən Zahid Oruc diqqətə çatdırıb ki, 3-cü maddə üzrə edilən dəyişikliyə əsasən, elektron müraciət anlayışının genişləndirilməsi və EHİS üzərindən təqdim olunan müraciətlərin hüquqi çərçivəyə daxil edilməsi nəzərdə tutulur. Bildirilib ki, bu dəyişiklik dövlət orqanlarına edilən müraciətlər zamanı vətəndaşların müxtəlif sistemlər arasında vaxt itkisini aradan qaldırır, xidmətlərə əlçatanlığı artırır. 6-cı maddədə təklif olunan dəyişikliklər isə daha geniş və əhatəlidir. Xüsusilə 6.3-cü maddəyə əlavə edilən yeni bəndlərlə vətəndaşlara müraciətin cavablandırılma üsulunu seçmək hüququnun verilməsi, eləcə də FİN və VÖEN kimi identifikasiya məlumatlarının daxil edilməsi müraciətlərin daha dəqiq və ünvanlı baxılmasına xidmət edir. Maddə 6.7 və 7.6-da təklif olunan dəyişikliklər isə artıq müraciətlərin yalnız göndərilməsi deyil, həm də cavablandırılması mexanizmini yeni mərhələyə keçirir. Vətəndaşa cavabın hansı formada təqdim ediləcəyini seçmək hüququnun verilməsi - məmur məsuliyyətinə və vətəndaş məmnuniyyətinə təsir edən çox mühüm addımdır.

Sənəddə müraciətin baxılmamış saxlanılması əsaslarının dəqiqləşdirilməsi hüquqi müəyyənlik baxımından müsbət haldır və tətbiq zamanı yaranan qeyri-müəyyənlikləri aradan qaldırır. Anonim müraciətlərə belə münasibət tamamilə qanunidir. Maddə 11.4 üzrə dəyişikliklərin vətəndaşların qəbula yazılma mexanizmini müasirləşdirdiyi, artıq bu prosesin həm fiziki, həm də elektron qaydada həyata keçirilə bildiyi vurğulanıb.

Təqdim olunan qanun layihəsinin dövlət idarəçiliyində şəffaflığın artırılmasına, vətəndaş müraciətlərinin vahid platforma üzərindən effektiv idarə olunmasına və xidmət keyfiyyətinin yüksəldilməsinə xidmət edən mühüm islahat xarakterli sənəd olduğu diqqətə çatdırılıb.

Müzakirədə komitə sədri Fazil Mustafanın, deputatlar Razi Nurullayevin, Nigar Məmmədovanın, Bəhruz Məhərrəmovun və Elman Nəsirovun dəyişikliklərlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ***
***"Azərbaycan"***

# Diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri başlayıb

## Xocalı Soyqırımı Memorialı ilə tanışlıq

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə Şərqi Zəngəzur və Qarabağa səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, səfərdə 62 ölkə və beynəlxalq təşkilatı təmsil edən 150-dən artıq səfir, diplomat, hərbi attaşe və digər nümayəndə iştirak edir.

Səfər Xankəndi şəhərini, Xocalı, Şuşa və Laçın rayonlarını əhatə etməklə, iki gün davam edəcək.

Diplomatik korpus nümayəndələri səfər çərçivəsində əvvəlcə Xocalı şəhərində Xocalı Soyqırımı Memorialı ilə tanış olublar.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov Xocalı Soyqırımı Memorialı barədə xarici nümayəndələrə məlumat verib.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.







## Diplomatik korpusun nümayəndələri Qarabağ Universitetində

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndidə Qarabağ Universitetinə gəliblər.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiət etdiyi xarici diplomatlara Qarabağ Universiteti barədə ətraflı məlumat verilib.

Diplomatik korpusun nümayəndələri ilə keçirilən görüşdə Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək təhsil ocağının innovasiyayönümlü, tələbəmərkəzli və tədqiqatəsaslı ali təhsil müəssisəsi kimi inkişaf etdiyini diqqətə çatdırıb.

Bildirib ki, Qarabağ Universiteti 2023-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilib, 2024-cü ilin sentyabrında rəsmi açılışı olub və ilk tələbələrin qəbulu həyata keçirilib. Hazırda universitetdə birinci və ikinci kurslar üzrə ümumilikdə 2100-dən çox tələbə təhsil alır, akademik və inzibati heyətin sayı isə 400-dən artıqdır.






Rektor qeyd edib ki, Qarabağ Universiteti dünya səviyyəli ali təhsil ocağı kimi formalaşdırılır və regionun inkişafında mühüm rol oynamağı hədəfləyir.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək bildirib ki, bu səfər diplomatik korpusun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə 21-ci səfəridir. "Bizim ilk səfərlərimiz 2020-ci ilin noyabrında başlamışdı. Aramızda elə səfirlər var ki, onlar cəbhə xəttində olublar, belə səfərlərə qatılıblar və onlar Qarabağın tam dəyişməsini və transformasiyasını zaman kəsiyində görə bilərlər.

Biz bu səfərlə Qarabağ torpağındakı reallıqları, illər ərzində necə transformasiya olunduğunu və Qarabağda yeni həyatın, canlanmanın necə baş verdiyini nümayiş etdirmək və göstərmək istəyirik. Təəssüf ki, Qarabağ son 30 il ərzində müharibə, münaqişə və qanla yadda qalıb. Bəli, bunun arxasında çətin bir tarix dayanır. Biz tarixi və keçmişi inkar edə bilmərik. Lakin xatirələrimizi yadda saxlayaraq, gələcəyə - Azərbaycan və qonşularımız üçün dinc bir gələcəyə baxırıq", - deyə Prezidentin köməkçisi əlavə edib.

Diplomatik korpusun nümayəndələri sonra Qarabağ Universiteti ilə tanış olub, tədris binası, kitabxana, auditoriya, laboratoriya və sərgi zalına baxış keçirib, İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi dinləyiblər.

Sonra diplomatik korpusun nümayəndələri Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikası, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsi ilə yaxından tanış olublar.

## Diplomatik korpusun nümayəndələri Xankəndi Zəfər parkına gəliblər



**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi Zəfər parkına gəliblər.**

AZƏRTAC xəbər verir ki, xarici nümayəndələr Xankəndi şəhərində yaradılan Zəfər parkı ilə yaxından tanış olublar.

Bildirilib ki, park Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir.

Zəfər parkının ümumi sahəsi 9 hektardır. Parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib.

## Diplomatik korpusun nümayəndələri Qarabağ Universitetinin Klinikası ilə tanış olublar





**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikası, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, xarici diplomatlara Tibb və sağlamlıq elmləri fakültəsi barədə məlumat verilib. Dekan Samir Babayev bildirib ki, fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. Binada 10 dərs və 9 auditoriya otağı, 3 laboratoriya, iş və imtahan otaqları, istirahət zonaları, kitabxana, brifinq zalları yaradılıb. Burada həmçinin mikrobiologiya, histologiya laboratoriyaları, hüceyrə yetişdirmə və digər inzibati otaqlar fəaliyyət göstərir.

Fakültədə yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə əsaslanan altıillik tibb və dördillik tibb bacısı proqramlarının tədrisi həyata keçirilir.

Tətbiq olunacaq müasir təhsil modeli tələbələrin nəzəri biliklərini Qarabağ Universitetinin Klinikasında praktik vərdişlərə çevirməyə imkan yaradır. Tələbələrin tədqiqat aparmaq və liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün də hərtərəfli imkanları var. Fakültənin fərqli xüsusiyyətlərindən biri isə seçmə fənn olaraq incəsənət proqramının tədris planına daxil edilməsidir.

Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə Şərqi Zəngəzur və Qarabağa səfər ediblər.

## Diplomatik korpusun nümayəndələri Şuşada Dövlət Xidmətləri Mərkəzində olublar

**Ölkəmizdəki diplomatik korpusun nümayəndələri Şuşada Dövlət Xidmətləri Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, mərkəzin yenidənqurma və təmiri işlərinə 2023-cü ilin mayında başlanılıb. Buradakı keçmiş poçt binasında və onun yerləşdiyi ərazidə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən əsaslı təmir işləri aparılıb, geniş yaşıllıq zonası salınıb.



Dördmərtəbəli binada "ASAN xidmət" və "DOST xidməti" mərkəzləri, KOB evi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (poçt, rabitə qovşağı) filialları fəaliyyət göstərir.

Dövlət Xidmətləri Mərkəzi əsaslı təmirdən sonra 2024-cü il iyulun 5-də Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə Şərqi Zəngəzur və Qarabağa səfər ediblər.

## Diplomatik korpusun nümayəndələri Şuşa qala divarlarını ziyarət ediblər




**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Şuşa qala divarlarını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, xarici nümayəndələrə Şuşa şəhərinin tarixi barədə məlumat verilib.

Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

# Avropa Parlamentinin Azərbaycan əleyhinə fəaliyyəti ilə əlaqədar

## Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI



Azərbaycan Respublikasının Milli Məclisi xarici ölkə parlamentləri və beynəlxalq parlament təşkilatları ilə əlaqələrində sülh, təhlükəsizlik və davamlı inkişaf naminə birgə fəaliyyəti rəhbər tutur, parlament dəyərlərinə və ortaq maraqlara əsaslanan açıq, səmimi və konstruktiv dialoqu təşviq edir.

Təəssüflər olsun ki, Avropa Parlamentinin qeyd olunan prinsipləri inkar edən destruktiv mövqeyi bu qurumla ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafı qarşısında başlıca maneəyə çevrilmişdir.

Avropa Parlamentinin fəaliyyətinin mahiyyətində beynəlxalq hüququn norma və prinsiplərinin, ədalət anlayışının qəti surətdə rədd edilməsi dayanır. Bu qurum torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına, yüzlərlə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına, etnik təmizləməyə, 1 milyondan çox qaçqın və məcburi köçkünün insan hüquqlarına davamlı şəkildə etinasız yanaşmışdır. Avropa Parlamenti ilə əməkdaşlıq üçün nəzərdə tutulmuş platformalar - Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlıq Komitəsi və Avronest Parlament Assambleyası isə ölkəmizə qarşı təzyiq, şantaj və daxili işlərə kobud müdaxilə alətinə çevrilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin bu münasibəti səbəbindən onunla bütün əlaqələrini 2015-ci ildə dayandırsa da, qarşı tərəfin çoxsaylı müraciətlərini və vədlərini əsas götürərək, əməkdaşlığı yenidən bərpa etmişdir.

Buna baxmayaraq, Avropa Parlamenti öz vədlərinə əməl etməmiş, özünün anti-Azərbaycan siyasətini, böhtan və qarayaxma fəaliyyətini ardıcıl surətdə davam etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğalına son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra isə Avropa Parlamentinin bu fəaliyyəti daha geniş vüsət almışdır. Prezident İlham Əliyevin özünün müəyyən etdiyi sülh gündəliyinin onun siyasi iradəsi və qətiyyəti sayəsində uğurla reallaşdırılması və tarixi Vaşinqton razılaşmaları ilə nəticələnməsi, dövlət başçısının sülhə, əməkdaşlığa və tərəqqiyə xidmət edən təşəbbüslərinin beynəlxalq səviyyədə dəstək qazanması bu qurumun anti-Azərbaycan ritorikasını daha da gücləndirmişdir. Təkcə onu demək kifayətdir ki, 44 günlük Vətən müharibəsindən sonra Avropa Parlamenti Azərbaycan əleyhinə saxta məlumatları, yalan iddiaları və absurd ittihamları əks etdirən 10-dan artıq qətnamə qəbul etmişdir. Avropa Parlamentinin COP29 ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hücumlarda əsas alətlərdən biri kimi istifadə olunması da yaddan çıxarılmamalıdır.

Bu gün demokratik dəyərlərin iflasa uğradığı, korrupsiya və rüşvətxorluğun dərin kök saldığı, lobbi qruplarına və müxtəlif maraq dairələrinə xidmət edən Avropa Parlamenti Azərbaycanofob və islamofob düşüncənin ardıcıl surətdə ifadə olunduğu struktura çevrilmişdir. Əsas narahatlıq doğuran məqamlardan biri də budur ki, bu qurum yalnız Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına maneə törətmir. Bu həm də regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi istiqamətində atılan addımlara qarşı çıxır, revanşist qüvvələri təhrik etməklə regionumuzu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir. Bütün bunlar isə Avropa Parlamenti ilə əməkdaşlığın mahiyyətini heçə endirir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əməkdaşlıq əlaqələri dayandırılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin fəaliyyətində iştirakına son qoyulsun.

3. Avronest Parlament Assambleyasının Nizamnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin bu təşkilatda üzvlüyünə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılsın və prosedur dövründə Milli Məclisin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmasın.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 1 may 2026-cı il*

# Avropa İttifaqının səfiri Xarici İşlər Nazirliyinə çağırılıb, etiraz notası təqdim edilib



**Mayın 1-də Avropa İttifaqının Azərbaycandakı səfiri Mariyana Kuyunciç Xarici İşlər Nazirliyinə çağırılıb.**

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Avropa Parlamenti tərəfindən aprelin 30-da qəbul edilmiş qətnamədə ölkəmizə qarşı yer almış əsassız və qərəzli müddəalar qəti şəkildə pislənib və bununla bağlı qarşı tərəfə etiraz notası təqdim olunub.

Sözügedən qətnamədəki müddəaların reallıqları təhrif etdiyi, obyektivlik prinsiplərinə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət öhdəliklərinə zidd olduğu vurğulanıb. Avropa Parlamentinin bu cür yanaşma sərgiləməsinin regionda normallaşma prosesinə, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivlərinə mənfi təsir etdiyi vurğulanıb.

Qətnamədə Qarabağ bölgəsinə erməni sakinlərin geri qayıdışı ilə bağlı irəli sürülən iddiaların tamamilə əsassız olduğu, bu kimi çağırışların Azərbaycanın daxili işlərinə müdaxilə xarakteri daşıdığı bildirilib. 2023-cü ildə Azərbaycan Konstitusiyasına uyğun olaraq təqdim edilmiş reinteqrasiya planına baxmayaraq, erməni sakinlərin regionu könüllü əsasda tərk etdiyi, bunun əksini iddia edən bəyanatların yanlış olduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, "müharibə əsirləri" kimi təqdim edilən erməniəsilli şəxslərin azad edilməsi ilə bağlı çağırışların da hüquqi baxımdan qəbuledilməz olduğu görüşdə qeyd edilib. Azərbaycan tərəfinin humanist yanaşma nümayiş etdirərək bir çox məhbusu azad etdiyi, etimad quruculuğu istiqamətində addımlar atdığı, barələrində məhkəmə hökmü çıxarılmış şəxslərin isə terrorçuluq, təxribat və hərbi cinayətlər daxil olmaqla bir sıra ağır cinayətlər törətmiş şəxslər olduğu xatırlanıb.

"Mədəni və dini irsin məhv edilməsi" ilə bağlı iddiaların tamamilə əsassız və qəbuledilməz olduğu vurğulanıb. Bununla yanaşı, işğal dövründə Azərbaycanın mədəni və dini irsinin genişmiqyaslı şəkildə dağıdılması və təhqir olunması faktlarına Avropa institutları tərəfindən önəm verilmədiyi diqqətə çatdırılıb.

Görüşdə Avropa İttifaqı tərəfi Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, eləcə də regionda sülh və normallaşma prosesinə zərər vuran bu kimi addımların qarşısını almağa çağırılıb.

# *Hikmət HACIYEV:* "Azərbaycan minlərlə itkin düşmüş şəxsin taleyinə aydınlıq gətirilməsini gözləyir"

**"Azərbaycan 30 ilə yaxındır ki, minlərlə ailənin itkin düşmüş yaxınlarının taleyinə aydınlıq gətirilməsini gözləyir".**




AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xankəndidə jurnalistlərə açıqlamasında deyib.

Hikmət Hacıyev bildirib ki, işğal dövründə Ermənistanın hərbi təcavüzü nəticəsində minlərlə Azərbaycan vətəndaşı əsir və girov götürülüb, onların sonrakı taleyi barədə isə bu günədək məlumat verilməyib: "Hazırda 4 minə yaxın itkin düşmüş şəxsin taleyi naməlum olaraq qalır və onların böyük əksəriyyəti mülki şəxslərdir".

Prezidentin köməkçisi qeyd edib ki, bu müddət ərzində Beynəlxalq Qızıl Xaç Komitəsi müəyyən məlumatlar toplasa da, mandatına uyğun olaraq bu işi tam şəkildə yekunlaşdıra bilməyib.

"Biz müxtəlif kanallarla, o cümlədən Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələri vasitəsilə də qarşı tərəfə müraciətlər etmişik. Ailələr hələ də övladları haqqında məlumat gözləyirlər", - deyə o vurğulayıb.

# *Prezidentin köməkçisi:* "Avropa Parlamentinin qəbul etdiyi sənəd Azərbaycan üçün hüquqi öhdəlik yaratmır"

**"Avropa Parlamentinin qəbul etdiyi sənəd Azərbaycan üçün hüquqi öhdəlik yaratmır. Azərbaycan regionda sülh və təhlükəsizliyin təmin olunması, Ermənistanla normallaşma prosesinin irəlilədilməsi istiqamətində addımlar atır".**

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında bildirib.

Hikmət Hacıyev qeyd edib ki, münaqişə başa çatsa da, onun yaratdığı humanitar problemlər, xüsusilə mina təhlükəsi hələ də qalmaqdadır.

Bildirilib ki, 2020-ci ildən bu günə qədər mina partlayışları nəticəsində 420-dən çox Azərbaycan vətəndaşı həlak olub və ya xəsarət alıb.

Prezident köməkçisi vurğulayıb ki, işğal dövründə Azərbaycan ərazilərində geniş miqyasda minalama aparılıb və bu, bərpa-quruculuq prosesinə təsir göstərir. Ərazilərin təmizlənməsi istiqamətində işlər davam etdirilir.

Hikmət Hacıyev həmçinin qeyd edib ki, Azərbaycanda saxlanılan erməniəsilli şəxslərlə bağlı məsələlər qanunvericiliyə uyğun şəkildə həll olunur və bu sahədə qərarlar məhkəmə orqanları tərəfindən qəbul edilir.

H.Hacıyev əlavə edib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri mövcud şəhərsalma planlarına uyğun həyata keçirilir və işğal dövründə qanunsuz inşa edilmiş obyektlərlə bağlı müvafiq tədbirlər görülür.

# Ceyhun Bayramov iranlı həmkarı ilə regional vəziyyəti müzakirə edib

**Mayın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı olub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan-İran ikitərəfli əlaqələri, eləcə də regionda mövcud vəziyyət müzakirə olunub.

Seyid Abbas Əraqçi İranın son sülh təşəbbüsləri və regionda müharibə vəziyyətinə son qoyulması istiqamətində mövqeyi barədə məlumat verib.

Tərəflər regionda sabitliyin və təhlükəsizliyin təmin olunması, gərginliyin azaldılması istiqamətində səylərin vacibliyini vurğulayıblar.

Telefon söhbəti zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakı lobbilərin oyuncağına çevrilmiş Avropa Parlamenti ilə əlaqələri kəsdi

## Avropa təsisatlarının qərəzi və aşkar düşmənçiliyi bu qurumlarla əməkdaşlığı mümkünsüz edir

Azərbaycanın dəfələrlə nümayiş etdirdiyi konstruktiv mövqeyə, əsassız ittihamlara son qoyulması barədə qəti tələblərinə baxmayaraq, Avropa Parlamenti ölkəmizə qarşı sistematik hücumlarını davam etdirir. Rəsmi Bakının çağırışlarını görməzdən gələn bu qurum öz fəaliyyətini faktiki olaraq ölkəmizin milli maraqlarına qarşı məqsədyönlü təzyiq mexanizminə çevirib. Bu baxımdan, rəsmi Bakı mövcud vəziyyəti dəyərləndirərək Avropa Parlamenti ilə bütün təmasları və əməkdaşlığı dayandırmaq qərarını alıb. Milli Məclisin qərarına əsasən, Avropa Parlamenti ilə bütün istiqamətlər üzrə əlaqələrə son qoyulur və bu təşkilatda üzvlüyə xitam verilməsi barədə prosedur qaydalarının icrasına başlanılır. Prosedur dövründə parlamentin nümayəndə heyəti Avronest Parlament Assambleyasının tədbirlərinə qatılmayacaq.

Etiraz əlaməti olaraq Avropa İttifaqının Azərbaycandakı səfiri Mariyana Kuyunciç də Xarici İşlər Nazirliyinə çağırılıb və Aİ Parlamenti tərəfindən 30 aprel tarixində qəbul edilmiş qətnamədə ölkəmizə qarşı yer almış əsassız və qərəzli müddəalar qəti şəkildə pislənilib. Sözügedən qətnamədəki müddəaların reallıqları təhrif etdiyi, obyektivlik prinsiplərinə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət öhdəliklərinə zidd olduğu vurğulanıb. Avropa Parlamentinin bu cür yanaşma sərgiləməsinin regionda normallaşma prosesinə, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivlərinə mənfi təsir etdiyi vurğulanıb. Qətnamədə Qarabağ bölgəsinə erməni sakinlərin geri qayıdışı ilə bağlı irəli sürülən iddiaların tamamilə əsassız olduğu, bu kimi çağırışların Azərbaycanın daxili işlərinə müdaxilə xarakteri daşıdığı bildirilib. Erməni sakinlərin regionu könüllü əsasda tərk etdiyi, bunun əksini iddia edən bəyanatların yanlış olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, "müharibə əsirləri" kimi təqdim edilən erməniəsilli şəxslərin azad edilməsi ilə bağlı çağırışların da hüquqi baxımdan qəbuledilməz olduğu vurğulanıb.

Azərbaycan uzun müddətdir ki, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası (AŞPA) ilə aktiv təmaslarını minimuma endirmişdi. AP-nin Azərbaycana qarşı düşmənçilik xəttini davam etdirməsi münasibətlərin rəsmi səviyyədə kəsilməsini qaçılmaz etdi. Yəni Azərbaycanın Avropa Parlamenti və AŞPA ilə münasibətlərinin rəsmi şəkildə kəsilməsi birdən-birə baş verən hadisə deyil, illərdir davam edən etimad böhranının məntiqi nəticəsidir. Azərbaycanın ərazi bütövlüyü məsələsində bu qurumların nümayiş etdirdiyi qeyri-konstruktiv mövqe, "insan hüquqları" və "demokratiya" şüarlarının ölkəmizə qarşı siyasi təzyiq aləti kimi istifadə edilməsi tərəfdaşlığı mümkünsüz hala gətirdi.

Son zamanlar Avropa Parlamentinin Azərbaycana qarşı apardığı sistemli kampaniya tənqid hüdudlarını aşaraq, açıq düşmənçilik müstəvisinə keçdi. Xüsusilə son dövrlərdə qəbul edilən qətnamələr artıq hüquqi və siyasi çərçivələri aşaraq, birbaşa şantaj və təzyiq xarakteri aldı. Təhrif olunmuş informasiyalar üzərində qurulan bu sənədlər parlamentlərarası dialoqun ruhunu məhv etdi, tərəflər arasındakı etimad mühitini dağıtdı. Ölkəmizin suverenliyini hədəf alan, Qarabağdakı separatçı meyilləri dolayı yolla dəstəkləyən və dövlətimizin beynəlxalq imicinə qəsd edən hər bir addım bu qurumların ermənipərəstliyini sübuta yetirdi. O baxımdan, münasibətlərin rəsmi səviyyədə kəsilməsi Azərbaycanın dövlət qüruru və suveren hüquqlarının qorunması üçün atılan zəruri addım idi.

Prezident İlham Əliyev 2026-cı ilin yanvar ayında "Euronews" telekanalına verdiyi geniş müsahibədə rəsmi Bakının Avropa Parlamentinə (AP) münasibətdə tutduğu mövqeyin konseptual əsaslarını açıqlamışdı. Dövlət başçısının o zaman qeyd etdiyi fikirlər, sadəcə, narazılıq ifadəsi deyildi, AP-nin daxili mexanizmlərində kök salmış qərəzin dərin köklərinə işıq salan strateji diaqnoz idi: "Avropa Parlamentinin Azərbaycana qarşı olan bu qərəzli vəziyyət Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən xüsusi lobbiçilik qruplarının, xüsusi qüvvələrin fəaliyyətinin nəticəsidir. Artıq uzun illərdir ki, biz Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası ilə istənilən əməkdaşlığı dayandırmışıq. Biz Avropa Komissiyası ilə əməkdaşlıq edirik və bununla kifayətlənirik".

Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycanın heç bir kənar güc mərkəzindən asılı olmayaraq öz qərarlarını verməsi və regionda yeni reallıqlar yaratması bu qurumdakı bəzi dairələr üçün "arzuolunmaz nümunə" kimi qəbul edilir. Prezident İlham Əliyev çox dəqiqliklə ifadə edib ki, Avropa Parlamenti artıq ümumbəşəri dəyərlərin keşiyində duran bir qurum yox, müəyyən qüvvələrin, lobbi dairələrinin əlində siyasi təzyiq və cəza mexanizminə çevrilmiş bir alətdir. Bu qüvvələrin əsas hədəfi Azərbaycanın regionda yaratdığı yeni reallıqları zəiflətməkdir. İkinci Qarabağ müharibəsindən sonra AP tərəfindən qəbul edilən 10-dan artıq qətnamənin məzmunu da bunu təsdiqləyir. Azərbaycanın regionda sülh, minatəmizləmə və bərpa-quruculuq işləri ilə məşğul olduğu bir vaxtda, AP-nin Ermənistandakı revanşist qüvvələri şirnikləndirən ritorika ilə çıxış etməsi sülh gündəliyinə vurulan ən böyük zərbədir. Lakin bu qurumlar unudurlar ki, Azərbaycan nə qədər böyük lobbi təzyiqləri və qərəzli qətnamələrlə üzləşsə də, öz müstəqil xəttindən və xalqın maraqlarından bir addım da geri çəkilməyəcək.

Avropa Parlamenti bu gün Avropanın özündə islamofobiyanın, korrupsiyanın və rüşvətxorluğun mərkəzi kimi xarakterizə olunur. Qurumun Aİ-nin strateji maraqlarından çox, müəyyən lobbi qruplarının əlində oyuncağa çevrilməsi faktlarla sübut olunub. "Qatargeyt - 2022", "Huavei lobbiçiliyi" və dünyaya səs salmış "Okampo hadisəsi" AP-nin mənəvi və siyasi legitimliyini sarsıdıb. Müxtəlif xarici güclərin, xüsusilə erməni lobbisinin təsir dairəsində olan deputatların ifşası qurumun beynəlxalq etimadını kəksin azaldıb. Bu təsisatın real təsir imkanlarının və qanunverici təşəbbüsünün olmaması onu siyasi bəyanatlar poliqonuna çevirib. Deputatların şəffaf olmayan maliyyə gəlirləri, onlara nəzarətin yoxluğu və nəhəng büdcə xərcləri fonunda AP qitənin problemlərini həll etmək əvəzinə, sülh gündəliyinə zərər verən və başqa dövlətlərin daxili işlərinə qarışan bir mexanizm halına gəlib.

Rüşvət və lobbiçilik bataqlığına qərq olmuş bir qurumun digər ölkələrə "insan hüquqları" və "demokratiya" dərsi keçməyə çalışması həm siyasi etikanın, həm də sadə məntiqin iflasıdır. Kənar qüvvələrin maliyyəsi ilə hərəkət edən deputatların qərarları Azərbaycan üçün heç bir hüquqi və mənəvi əhəmiyyət kəsb etmir. O baxımdan, Azərbaycan üçün belə qeyri-ciddi və korrupsiyaya bulaşmış platformada təmsil olunmaq mənasızdır. Milli Məclisin qərarı həm də beynəlxalq birliyə yönəlmiş qətiyyətli bir xəbərdarlıqdır. Azərbaycanla yalnız bərabərhüquqlu və qarşılıqlı hörmətə söykənən dildə danışmaq mümkündür. Çünki Azərbaycan müstəqil siyasət yürütmək və öz milli təhlükəsizliyini qorumaq iqtidarında olan güclü, nüfuzlu bir dövlətdir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Azərbaycan-Ermənistan sülh gündəliyi barədə məlumatlandırılıb



**Mayın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Miryana Spolyariç Eggeri qəbul edib.**

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında əməkdaşlığın uzunmüddətli və etimada əsaslanan xarakter daşıdığı vurğulanıb, tərəflər arasında mütəmadi təmasların davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin regionumuzda həyata keçirdiyi humanitar fəaliyyətlər müzakirə edilib, Azərbaycanın bu addımlara göstərdiyi dəstəyin önəmi vurğulanıb.

Nazir Ceyhun Bayramov regionda gərginlik və hərbi əməliyyatlar fonunda Azərbaycanın hər zaman humanitar prinsiplərə sadiq qaldığını, o cümlədən İranda hərbi əməliyyatların davam etdiyi dövrlərdə bu ölkəyə humanitar yardımların göstərildiyini diqqətə çatdırıb.

Müasir dövrdə silahlı münaqişələrin əsasən mülki əhali üçün ağır nəticələr doğurduğu bildirilərək, beynəlxalq ictimaiyyətin bu istiqamətdə səylərinin artırılmasının vacibliyi qeyd edilib. Bu kontekstdə Azərbaycanın beynəlxalq hüquqa və beynəlxalq humanitar hüquqa verdiyi önəm, habelə bu prinsiplərə daim riayət etdiyi xüsusi vurğulanıb.

Görüşdə həmçinin postmünaqişə dövründə regionumuzda sülhün və sabitliyin bərqərar olunması istiqamətində atılan addımlar müzakirə edilib. C.Bayramov Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və qarşılıqlı etimadın gücləndirilməsi istiqamətində görülən işlər barədə qarşı tərəfə məlumat verib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# "Bentley Baku" Rəşad Mehdiyevin yeni əsərlərini təqdim edib



**"Bentley Baku" "Art in Motion" simvolik ad altında Rəşad Mehdiyevin fərdi sərgisini təqdim edərək yüksək incəsənət ilə dərin fəlsəfənin qovuşduğu məkana çevrilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva sərgini ziyarət ediblər.

Bu sərgi statik düşüncə anı ilə insanın daxili transformasiyasının davamlı axını arasındakı incə sərhədin tədqiqidir. Müəllifin diqqət mərkəzində metamorfozlar dünyası dayanır; burada qəhrəmanların düşüncələri və arzuları fiziki formaya çevrilərək insan mahiyyətinin davamı kimi çıxış edir və sərhəd tanımayan daxili aləmin zənginliyini simvolizə edir.

Ekspozisiyaya olan yüksək maraq Azərbaycan müasir mədəniyyəti fonunda Rəşad Mehdiyevin yaradıcılığının dəyərini aydın şəkildə ortaya qoyub.

"Art in Motion" təbii estetika ilə dərin simvolizmi birləşdirir. Burada hər bir əsər və hər bir forma fantaziyanın həyatın yeganə həqiqi meyarına çevrildiyi reallığa açılan portal kimi təqdim olunur. Müəllifin rəngkarlıq ustalığı ilə heykəltaraşlıq baxışının sintezi sərgini vahid canlı instalyasiyaya çevirərək müasir Azərbaycanda gözəlliyin və yaradıcı düşüncənin təntənəsini əks etdirir.







# Vatikanda Heydər Əliyev Fondu ilə birgə layihələrin təqdimatına həsr olunan tədbir keçirilib





**Aprelin 30-da Vatikanda Kançelleriya Sarayında Heydər Əliyev Fondu ilə birgə həyata keçirilən layihələrin təqdimatı mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Müqəddəs Taxt-Tacın və İtaliyanın rəsmi şəxslərinin, elmi, siyasi və ictimai xadimlərin, Vatikan və İtaliyanın diplomatik korpusunun nümayəndələrinin iştirak etdiyi tədbirdə Heydər Əliyev Fondu ilə Vatikan arasındakı əməkdaşlığın tarixi və 2012-ci ildən etibarən həyata keçirilən layihələr barədə məlumat verilib. Həmçinin bu layihələri əhatə edən "Mədəniyyətlər körpüsü" ("Pontes Culturae") kitabı, eləcə də Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında ötən illər ərzində formalaşmış dostluq və əməkdaşlıq münasibətlərini, Heydər Əliyev Fondunun Vatikandakı mədəni-humanitar təşəbbüslərini, həmçinin tarixi və dini irs nümunələrinin bərpası istiqamətində görülmüş işləri əks etdirən sənədli film təqdim olunub.

"Mədəniyyətlər körpüsü" nəşri Heydər Əliyev Fondu, Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası və Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyi tərəfindən hazırlanıb. Kitabın ilk nüsxəsi Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2025-ci ilin oktyabrında Vatikana səfəri çərçivəsində Roma Papası XIV Leo ilə görüşü zamanı təqdim edilmişdi.

Təqdim olunan nəşr və sənədli filmdə Azərbaycan və Vatikan arasında əlaqələrin tarixi, iki dövlət arasında münasibətlərin inkişafında Ümummilli Lider Heydər Əliyevin 1997-ci ildə Vatikana ilk rəsmi səfərinin rolu, Azərbaycan və Müqəddəs Taxt-Tac ilə əməkdaşlıq, mədəniyyətlər və dinlərarası dialoqun genişlənməsinə yönələn qarşılıqlı rəsmi səfərlər barədə məlumat verilir. Həmçinin Heydər Əliyev Fondunun 2012-ci ildən Vatikanda



həyata keçirdiyi layihələrin əhəmiyyəti qeyd olunur. Nəşr və sənədli filmdə fondun Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası ilə katakombaların bərpası, Vatikan Apostol Kitabxanası ilə əlyazmaların rəqəmsallaşdırılması, Vatikan muzeylərində, eyni zamanda Müqəddəs Pyotr Kilsəsi və Müqəddəs Pavel Bazilikasında bərpa işləri, Müqəddəs Taxt-Tacın Bambino Gesu pediatrik xəstəxanası ilə əməkdaşlıq layihələri öz əksini tapıb.

Tədbir zamanı iki ölkə arasında əməkdaşlığın dərinləşməsi istiqamətində həyata keçirilən siyasətə və görülmüş işlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıq ifadə olunub.

Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov bildirib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə fond tərəfindən indiyədək dünyanın müxtəlif regionlarında, o cümlədən Vatikanda mədəni və dini irsin qorunmasına yönələn çoxsaylı layihələr həyata keçirilib. Vurğulanıb ki, bu layihələr yalnız memarlıq abidələrinin bərpası ilə məhdudlaşmır, eyni zamanda bəşəriyyətin ortaq yaddaşına hörmətin ifadəsi, keçmişlə gələcək arasında mənəvi dialoqun qurulması və ümumbəşəri dəyərlərin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Pasquale Yakobone Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirib. Bildirilib ki, Vatikanla əməkdaşlıq 2012-ci ildə imzalanmış ilk sazişlə başlayıb və sonrakı illərdə mərhələli şəkildə genişlənərək Müqəddəs Marselino və Pyotr katakombalarının, eləcə də Müqəddəs Sebastian katakombasının bərpası və ictimaiyyət üçün açılması ilə davam etdirilib. 2016-cı, 2018-ci və 2021-ci illərdə imzalanan sazişlər bu əməkdaşlığın daha da möhkəmlənməsinə və davamlı xarakter almasına töhfə verib.

Bildirilib ki, həyata keçirilən layihələr təkcə Roma və ya katolik kilsəsi üçün deyil, bütövlükdə bəşəriyyətin ortaq irsi hesab olunur və bu baxımdan qorunması, gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət daşıyır. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və restavrasiya işləri nəticəsində yalnız abidələrin qorunması deyil, eyni zamanda elmi-tədqiqat və texnoloji sahədə də irəliləyişlər əldə olunub. Restavrasiya prosesində yeni metodların tətbiqi və əldə olunan nəticələr akademik araşdırmaların inkişafına da töhfə verib.

Apostol Kitabxanasının və Arxivlərinin rəhbəri Covanni Çezare Paqatzi çıxışında kitabxana və arxivlərin yalnız elmi-tədqiqat mərkəzləri deyil, eyni zamanda müxtəlif mədəniyyətlər və xalqlar arasında dialoq yaradan mühüm platforma olduğunu vurğulayıb. Bildirilib ki, bu institutlarda qorunan sənədlər və əlyazmalar bəşəriyyətin ortaq yaddaşını əks etdirir və alimləri ümumi dəyərlər ətrafında birləşdirir.

Qeyd olunub ki, bu qurumlar Müqəddəs Taxt-Tacın birbaşa himayəsində olmaqla yanaşı, həm də "sülh məkanı" rolunu oynayır. Vurğulanıb ki, bu cür mədəniyyət ocaqlarına göstərilən dəstək, əslində, sülhə və qarşılıqlı anlaşmaya töhfə deməkdir.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov çıxışında fondun tarixi abidələrin bərpası sahəsində fəaliyyətini və bu layihələrin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın aparıcı rolunu qeyd edib. O vurğulayıb ki, Vatikanla əməkdaşlığın davamı olaraq, Vatikanın Müqəddəs Pavel Bazilikasında yerləşən dörd abidənin bərpası ilə bağlı yeni müqavilələr imzalanıb və yaxın gələcəkdə bərpa və restavrasiya olunmuş abidələrin yerli qurumların iştirakı ilə təqdimatı planlaşdırılır. Anar Ələkbərov, həmçinin qeyd edib ki, Heydər Əliyev Fondu yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində mədəni irsin qorunması istiqamətində layihələr həyata keçirir və bu sahədə fəaliyyətin genişləndirilməsi nəzərdə tutulur.

Daha sonra Heydər Əliyev Fondunun yəhudilik, xristianlıq və islam dinlərinə həsr edilmiş "Səmavi dinlər" layihəsi çərçivəsində ərsəyə gətirilmiş triptix xalça kompozisiyası nümayiş olunub. Hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini - sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

# "İctimai proseslər media müstəvisində" mövzusunda III Forumun açılış mərasimi olub






**Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda III Forumun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsində həlak olmuş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra iştirakçılara "Şəhərsalma və Memarlıq İli"nə həsr edilmiş videoçarx təqdim olunub.

Çıxış edən Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, MEDİA-nın və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə "WUF13: Dayanıqlı şəhərsalmanın inkişafı və medianın rolu" mövzusunda silsilə məlumatlandırma sessiyaları təşkil olunub.

O vurğulayıb ki, müstəqillik illərində Ulu Öndərin müəllifi olduğu quruculuq xətti dövlətimizin qüdrətini və xalqımızın estetik zövqünü bütün dünyaya nümayiş etdirib: "Ulu Öndərin şəhərsalma vizyonunun bu gün beynəlxalq səviyyədə təsdiqini tapmasının ən mühüm nümunələrindən biri də WUF13-ün Bakıda keçirilməsi ilə bağlı qəbul edilən qərardır. WUF13-ün Bakıda təşkili Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi uğurların beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin göstəricisidir".

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov bu gün ictimai proseslərin böyük hissəsinin məhz rəqəmsal mühitdə baş verdiyinə diqqət çəkib. Onun sözlərinə görə, media və ictimai proseslər artıq yalnız xəbər istehsalı deyil, məlumatın sürəti, texnoloji platformalarla təhlükəsiz mühitdə ötürülməsidir. Rəqəmsal inkişaf isə medianın fəaliyyətinə yeni imkanlar və çağırışlar açır. Bu dəyişikliklər fonunda ölkəmizdə rəqəmsal inkişafda yeni mərhələ başlayıb.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov rəqəmsal platformaların əhalinin əksəriyyəti üçün əsas informasiya kanallarına çevrildiyini deyib. O qeyd edib ki, Azərbaycan əhalisinin 94,6 faizinin şəhərlərdə, 82,1 faizinin kəndlərdə internetə çıxışı var. Bu, dünya üzrə orta göstəricidən xeyli yüksəkdir. "Hazırda məktəblərin 63 və şagirdlərin 82 faizi genişzolaqlı internet şəbəkəsinə qoşulma imkanlarına malikdir. Növbəti mərhələdə bütün məktəblərdə fiber-optik internet, yenilənmiş daxili şəbəkə, müəllim və şagird cihazlarının qoşulması, eyni zamanda gücləndirilməsinə texniki dəstək təmin olunacaq", - deyə F.Qurbanov vurğulayıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Riad Qasımov isə vurğulayıb ki, ölkəmizdə "Şəhərsalma və Memarlıq İli"nin elan olunması dövlətimizin bu sahəyə verdiyi yüksək önəmin, həyata keçirilən ardıcıl islahatların və uzunmüddətli inkişaf strategiyasının məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən dövlətçilik strategiyası ölkəmizin bütün sahələrində, o cümlədən şəhərsalma və memarlıq istiqamətində sistemli və dayanıqlı inkişafın əsasını qoyub. Bu siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd edək ki, forumun keçirilməsində məqsəd ictimai proseslərin mediada işıqlandırılması səviyyəsinin artırılması, rəqəmsal mühitdə yaranan çağırışlara qarşı birgə yanaşmaların formalaşdırılması və innovativ media həllərinin təşviq edilməsidir.

# Şəhərsalma, mədəni irs və qlobal tədbirlər media müstəvisində

**"İctimai proseslər media müstəvisində" mövzusunda III Forum işini panel sessiyalarla davam etdirir.**

AZƏRTAC xəbər verir ki, Medianın İnkişafı Agentliyinin Media dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru Ləman İsgəndərovanın moderatorluğu ilə keçirilən panel sessiyada "Şəhərsalma və Memarlıq İli"ndə media gündəmi mövzusu müzakirə olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Metin Hüseynov qeyd edib ki, 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması zamanın çağırışlarına cavab verən düşünülmüş qərardır. Bu qərar yalnız bir təqvim ili ilə məhdudlaşmır, Bakının



şəhərsalma siyasətində yeni mərhələnin, sistemli və beynəlxalq standartlara inteqrasiya olunan inkişaf modelinin davamıdır. Bakıda keçiriləcək WUF13 buna bariz nümunədir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Beynəlxalq və ictimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Fariz Hüseynli işğaldan azad olunmuş ərazilərdə 705 tarix-mədəniyyət abidəsinin Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə dövlət qeydiyyatına alındığını diqqətə çatdırıb. O vurğulayıb ki, işğal dövründə bu ərazilərə fiziki giriş mümkün olmadığı üçün siyahılar əvvəlki arxiv materialları əsasında tərtib edilsə də, torpaqlarımız azad olunduqdan sonra bölgədə monitorinqlər aparılıb. Nəticədə isə 575 abidənin vəziyyəti artıq tam qiymətləndirilib.

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Məzmun və Media Əlaqələri üzrə Baş Meneceri Eldar Rəsulov vurğulayıb ki, bu günə kimi 175 ölkədən 24 mindən artıq şəxs WUF13-də iştirak üçün qeydiyyatdan keçib və qeydiyyat hələ də davam edir. "İnanırıq ki, bu rəqəm tədbirə qədər artacaq. Eynilə media nümayəndələrinin qeydiyyatı da davam edir. Artıq həm yerli, həm xarici olmaqla, 800-dən artıq media nümayəndəsi qeydiyyat üçün müraciət edib.

Həmçinin tədbirin əsas məkanında, Bakı Olimpiya Stadionunda WUF13 Media Mərkəzi fəaliyyət göstərəcək. Mərkəzdə media nümayəndələri üçün hər cür şərait yaradılacaq", - deyə E.Rəsulov bildirib.

Panel sessiya müzakirələrlə davam edib.



# Azərbaycan idman sahəsində də qalib ölkədir

**İdman, sadəcə, fiziki qüvvənin nümayişi deyil, eyni zamanda insanın özünü aşması, iradəsini sınaması, daxili dünyasını tərbiyə etməsi deməkdir. İdmanın fəlsəfəsi rəqibi məğlub etməkdən daha çox öz zəif tərəflərini yenmək, qələbəyə gedən yolda ədaləti və ləyaqəti qorumaqdır. Bu baxımdan idman fərdi inkişaf vasitəsi olmaqla yanaşı, həm də xalqları birləşdirən, sülh və qarşılıqlı anlaşmanı təşviq edən mühüm bir platformadır. Tarix boyu ən gərgin siyasi dövrlərdə belə, idman yarışları dövlətlər arasında dialoq körpüsü rolunu oynayıb.**

Ölkəmiz məhz bu ali dəyərlərə söykənərək idman sahəsində böyük uğurlar qazanır, dünya idman ailəsində nüfuzunu artırır. İndi qürurla qeyd edə bilərik ki, "idman ölkəsi" anlayışı Azərbaycan üçün konkret nəticələrə əsaslanan reallıqdır. Həmçinin danılmaz gerçəklikdir ki, Azərbaycanın idman sahəsində əldə etdiyi uğurların təməlində məqsədyönlü və ardıcıl dövlət siyasəti dayanır. Bu siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni mərhələyə yüksəlib. Dövlətimizin başçısı tərəfindən idmana göstərilən diqqət, idmançıların sosial rifahlarının yaxşılaşdırılması, onların beynəlxalq yarışlara yüksək səviyyədə hazırlanması üçün yaradılan şərait ölkəmizdə idmanın sistemli inkişafını təmin edir.

Prezident İlham Əliyevin Avropa çempionatında komanda hesabında çempion olmuş güləşçilərlə görüşü bu siyasətin növbəti təzahürü idi. Səmimi və işgüzar mühitdə keçən görüşdə dövlət başçısı idmançıların qazandıqları uğurların əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir". Bu fikir bir daha Azərbaycanın artıq Avropa idman məkanında lider mövqeyə yüksəldiyini təsdiq edir.

Dövlətimizin başçısı çıxışında müasir dövrdə idmanda rəqabətin daha da sərtləşdiyini bildirmişdir: "Bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir… mübarizə də çox gərgin idi". Belə bir şəraitdə qazanılan qələbə isə idmançılarımızın peşəkarlığının və hazırlıq səviyyəsinin göstəricisidir. Dövlət başçısının sözləri ilə desək, "bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər".

Azərbaycanın güləş məktəbinin zəngin ənənələri də bu uğurların əsasını təşkil edir. Prezident bu məqama da toxunmuşdur: "Güləşimizin böyük ənənələri var və biz bu ənənələri yaşadırıq". Bu ənənələrin davam etdirilməsi isə tanınmış idmançılarla yanaşı, yeni nəslin uğurları ilə də təmin olunur. Prezidentin vurğuladığı kimi, gənc idmançıların nailiyyətləri məşq və seleksiya sisteminin düzgün qurulduğunu göstərir.

Bu baxımdan xüsusi diqqətçəkən məqamlardan biri də idmanda nəsillərarası varisliyin qorunmasıdır. Prezident bunu belə ifadə etmişdir: "Nəsillər dəyişir, amma bir şey dəyişmir, o da Azərbaycan idmanının uğurları". Bu fikir Azərbaycan idman modelinin dayanıqlılığını və strateji baxımdan düzgün qurulduğunu bir daha nümayiş etdirir.

İdmanın cəmiyyət həyatındakı roluna toxunan dövlətimizin başçısı demişdir: "İdman, ümumiyyətlə, cəmiyyətimizin ayrılmaz hissəsidir". Bu gün Azərbaycanda idman yalnız yarış və nəticə deyil, həm də sosial və mənəvi dəyər kimi qəbul olunur. Xüsusən gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində idmanın rolu danılmazdır. Prezidentimizin də vurğuladığı kimi, "hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir".

Bu da təsadüfi deyil. Çünki Azərbaycan idmançıları beynəlxalq arenalarda ölkəni layiqincə təmsil edir, bayrağımızı zirvələrə qaldırırlar. Bu uğurlar eyni zamanda ölkənin ümumi inkişaf səviyyəsinin də göstəricisidir. Prezidentin qeyd etdiyi kimi, "idman nailiyyətləri ölkəmizin ümumi inkişafını əks etdirir".

Azərbaycanın idman sahəsindəki nailiyyətləri geniş maddi-texniki baza ilə dəstəklənir. Bu gün ölkənin bütün bölgələrində müasir olimpiya idman kompleksləri fəaliyyət göstərir. Onlar peşəkar idmançıların və gənclərin idmana cəlb olunmasında mühüm rol oynayır. Prezident çıxışında qeyd etdiyi kimi, bölgələrdə yaradılan bu imkanlar seleksiya işinin genişlənməsinə və gələcək uğurların təmin olunmasına xidmət edir.

Ölkəmizin yaxın keçmişdə Avropa və İslam Həmrəyliyi Oyunlarına, eləcə də digər mötəbər beynəlxalq yarışlara evsahibliyi etməsi idman sahəsində qazandığımız nüfuzun bariz göstəricisidir. Prezidentin sözləri ilə desək, həmin tədbirlər demək olar ki, Yay Olimpiya Oyunlarının səviyyəsinə çox yaxın olmuşdur. Bu isə Azərbaycanın həm təşkilatçılıq bacarığını, həm də idman potensialını nümayiş etdirir.

Ölkəmizdə idmanın inkişafında Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Fondun prezidenti, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən layihələr idmanın kütləviliyinin artırılmasına, sağlam həyat tərzinin təşviqinə və gənclərin bu sahəyə marağının gücləndirilməsinə xidmət edir. Xüsusilə bu gün regionlarda fondun həyata keçirdiyi layihələr idmanın hər kəs üçün əlçatan olmasına şərait yaradır.

Prezident İlham Əliyev çıxışında bu sahəyə göstərilən diqqətin sistemli xarakter daşıdığını bir daha vurğulamışdır: "İdmana, idmançılara qayğı dövlət siyasətidir". Bu yanaşma Azərbaycan idmanının davamlı inkişafını təmin edən əsas amillərdən biridir.

Bu gün Azərbaycan idmançıları olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında qazandıqları medallarla ölkəmizin adını yüksəklərə qaldırırlar. Bu uğurlar sistemli inkişafın nəticəsidir. İdmançılarımızın qələbələri milli ruhun, vətən sevgisinin və dövlət dəstəyinin təcəssümüdür. Fərəhlə qeyd edə bilərik ki, Azərbaycan idman sahəsində də inkişaf edən, beynəlxalq arenada öz sözünü deyən qalib ölkədir. İdmanın ədalət, əzm, birlik və sülh prinsipləri ölkəmizin inkişaf strategiyası ilə vəhdət təşkil edir. Bu isə Azərbaycanın gələcəkdə də idmanda yeni zirvələr fəth edəcəyinə əminlik yaradır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Əbədiyyətə qovuşan ömrün 103-cü baharı

**Mayın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) və Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Əbədiyyətə qovuşan ömrün 103-cü baharı" adlı tədbir keçirilib.**







Əvvəlcə Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirələri birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin ömrü Azərbaycanın dövlət müstəqilliyi və yüksəlişi ilə eyniləşən əbədi bir yoldur: "Bu yolun hər bir mərhələsi xalqımızın rifahına, ölkəmizin qüdrətlənməsinə xidmət edib. Hələ müstəqillikdən öncə Azərbaycana rəhbərlik edərkən Heydər Əliyev ölkə iqtisadiyyatının onurğa sütunu sayılan kənd təsərrüfatının inkişafını prioritet elan etmişdi. O, torpağı xalqın ən böyük sərvəti hesab edirdi. Dahi rəhbərin uzaqgörənliyi sayəsində ötən əsrin 70-80-ci illərində Azərbaycan aqrar sektorda rekord göstəricilərə imza atıb, kəndlərimiz müasirləşib, kəndli əməyi şərəfli bir sahəyə çevrilib. 1969-cu ildə ölkədə cəmi 300 min ton pambıq yığıldığı halda, Heydər Əliyevin planlaması və təşkilatçılığı sayəsində 1981-ci ildə bu rəqəm rekord həddə - 1 milyon tona çatdırılmışdı. Bu, Azərbaycanın iqtisadi potensialını dünyaya nümayiş etdirən pambıqçılığın intibahı idi. Onun təşəbbüsü ilə Azərbaycanda irimiqyaslı üzüm bağları qurulub. Beləliklə, illik üzüm istehsalı 2 milyon tona çatıb, yüzlərlə yeni müəssisə qurulub. Bu sahə minlərlə Azərbaycan ailəsinin rifahını yüksəldib".

Məcnun Məmmədov deyib ki, Ümummilli Liderin tapşırıqları ilə ölkəmizin suvarma sistemlərinin böyük əksəriyyəti həmin illərdə inşa edilib: "Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarının inkişafı, su anbarlarının inşası minlərlə hektar quru torpağı bərəkətli sahələrə çevirib. Müstəqilliyimizin ilk ağır illərində də məhz Ulu Öndərin cəsarəti və strateji zəkası ilə həyata keçirilən aqrar islahatlar Azərbaycan fermerini yeni bir dövrə hazırladı. 1996-cı ildə qəbul edilən tarixi "Torpaq islahatı haqqında" qanun kəndlərdə mülkiyyət münasibətlərini kökündən dəyişdi və fermerlər üçün azad sahibkarlığın təməlini qoydu".

Nazir əlavə edib ki, dövlət mülkiyyətində olan torpaqların vətəndaşların şəxsi mülkiyyətinə verilməsini nəzərdə tutan bu islahatlarla yeni yaranmış müstəqil respublikanın iqtisadi, ərzaq və qida təhlükəsizliyinin əsasları formalaşdırılıb.

"Bu gün Ümummilli Liderin siyasi kursu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Böyük rəhbərin müəyyən etdiyi strateji xətt Prezident İlham Əliyevin yürütdüyü aqrar siyasət nəticəsində ölkəmizi kənd təsərrüfatı sahəsində innovasiyaların, "yaşıl iqtisadiyyat"ın və "ağıllı kənd" konsepsiyalarının tətbiq olunduğu məkana çevirib. Məcnun Məmmmədov vurğulayıb ki, işğaldan azad edilmiş və "yaşıl enerji zonası" elan olunmuş Qarabağ və Şərqi Zəngəzurun münbit torpaqlarının yenidən əkin dövriyyəsinə qaytarılması Ulu Öndərimizin ruhunu şad edən ən böyük tarixi hadisələrdəndir. Bu gün o torpaqlarda Heydər Əliyevin arzuladığı müasir aqrarsənaye kompleksləri qurulur, onun "Azərbaycanın gələcəyi kənd təsərrüfatının inkişafından asılıdır" tezisini rəhbər tutaraq yeni nailiyyətlərə imza atılır. Heydər Əliyevin ömrü bizim üçün həm də bir vətənpərvərlik məktəbidir. Biz bu gün kənd təsərrüfatının daha da inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması üçün çalışan fermerlərimizlə, aqrar sahədə ixtisaslamış şirkət nümayəndələri ilə birgə Ümummillli Lider Heydər Əliyevin şərəfli yoluna nəzər salmaq üçün bir araya gəlmişik. Burada keçirilən tədbir - aqrar sahədə çalışanlar üçün Ümummilli Liderin ruhu qarşısında bir hesabatdır. Bu gün ölkəmizin kənd təsərrüfatında əldə olunan nailiyyətlərdə, uğurlu nəticələrdə tədbir iştirakçılarının, fermerlərin böyük payı var", - deyə nazir vurğulayıb.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan xalqı dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə yad edir: "Ulu Öndər bütün mənalı ömrünü Vətənin tərəqqisinə həsr etmiş, müstəqilliyimizin qorunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi və xalqımızın parlaq gələcəyi naminə məqsədyönlü fəaliyyəti ilə millətimizə misilsiz nailiyyətlər qazandırmışdır".

Tahir Budaqov bildirib ki, Ümummilli Liderin uzaqgörən siyasəti bütün sahələrin, o cümlədən strateji əhəmiyyətə malik aqrar sektorun davamlı inkişafını təmin etmişdir: "Ulu Öndər hər zaman vurğulayırdı ki, kənd təsərrüfatı iqtisadi təhlükəsizliyin, əhalinin rifahının və regionların inkişafının əsas sütunlarından biridir. Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə aqrar sektorda qazanılan uğurlar respublikanın sosial-iqtisadi inkişafına güclü təkan vermişdir. Kənd təsərrüfatı məhsulları istehsalı artırılmış, pambıqçılıq, üzümçülük, tərəvəzçilik, çayçılıq və heyvandarlıq sahələrində mühüm irəliləyiş əldə olunmuş, meliorasiya və irriqasiya sistemləri genişləndirilmiş, yeni suvarma kanalları çəkilmiş, torpaq fondundan səmərəli istifadə nəticəsində məhsuldarlıq əhəmiyyətli dərəcədə yüksəlmişdir. Müstəqillik dövründə isə bazar iqtisadiyyatına keçid şəraitində torpaq islahatlarının aparılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və digər mühüm addımlar ölkəmizin iqtisadi potensialının artmasına və dayanıqlı inkişafına möhkəm zəmin yaratmışdır".

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərin tükənməz dövlətçilik irsi Azərbaycanın bütün uğurlarının möhkəm təməlini təşkil edir: "Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi nailiyyətlər və şanlı Zəfər xalqımızın iradəsini, dövlətimizin isə qüdrətini bütün dünyaya nümayiş etdirmişdir. Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası da müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr vermişdir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə öz fəaliyyətini dövrün çağırışlarına uyğun müvəffəqiyyətlə davam etdirən Yeni Azərbaycan Partiyası ictimai-siyasi sabitliyin və milli birliyin qorunması, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın uğurla həyata keçirilməsi və nəhayət, bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində üzərinə düşən bütün vəzifələri yerinə yetirmək əzmindədir".

Tahir Budaqovun sözlərinə görə, kənd təsərrüfatı daim yenilənən və qlobal dəyişikliklərə uyğunlaşan bir sahədir: "Ölkəmizdə həyata keçirilən tədbirlər, xüsusilə də innovativ texnologiyaların tətbiqi ərzaq təhlükəsizliyinin təmini, yerli istehsalın artırılması, ixrac potensialının genişləndirilməsi və su ehtiyatlarının səmərəli istifadə olunması baxımından mühüm əhəmiyyətə malik olmaqla aqrar sektorun inkişafına təkan verir. Kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, eyni zamanda milli təhlükəsizliyin önəmli dayaqlarından biridir. Bu səbəbdən yeni dövrün çağırışları fonunda, xüsusilə də aqrar sektorun inkişaf etdirilməsi üçün böyük potensiala malik olan işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi sahəsində sizin üzərinizə böyük məsuliyyət düşür. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq bundan sonra da qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirəcək və ölkəmizin inkişafına töhfələr verəcəksiniz. Hər birinizə xalqımızın rifahı və müstəqil Azərbaycanın parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram".

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamızda sosial-iqtisadi sahədə davamlı inkişafa nail olunub: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", - deyən Ulu Öndər ölkə iqtisadiyyatının dirçəldilməsi üçün məqsədyönlü siyasət həyata keçirib. Ullu Öndərin hələ SSRİ dönəmində ölkəmizə rəhbərlik etdiyi illərdə iqtisadiyyat, mədəniyyət, elm, təhsil sürətlə inkişaf edib, respublikamız qısa zamanda keçmiş ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxıb. Sözsüz ki, bu xidmətlər xalqımız tərəfindən əsrlər boyu xatırlanacaqdır".

Tahir Rzayev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev müstəqillik illərində xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi dövrdə Azərbaycanı parçalanmaqdan, qarşıdurmalardan, vətəndaş müharibəsindən xilas etdi: "O, islahatçı bir rəhbər idi. İstər SSRİ dövründə, istərsə də sonrakı dönəmdə Heydər Əliyevin həyata keçirdiyi islahatlar, aqrar sahədə yeni qanunların qəbul olunması, torpaq islahatının aparılması göstərdi ki, Ulu Öndər nəinki yaşadığı dövrün problemlərini dərindən bilir, eləcə də Onun baxışları yüzillikləri qarşılayır. Nəticə etibarilə, Azərbaycan sosial-iqtisadi cəhətdən davamlı inkişaf edir. Müasir dövrdə isə ölkəmiz Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə dinamik inkişaf yolunda irəliləyir".

Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımov çıxışında bildirib ki, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və iqtisadi əsaslarının formalaşmasında müstəsna xidmətlər göstərmiş Ulu Öndərin fəaliyyəti bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da köklü dönüş yaradıb. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə kənd təsərrüfatı, sadəcə, iqtisadi sahə kimi deyil, milli təhlükəsizlik və sosial rifahın əsas dayaqlarından biri kimi qiymətləndirilib: "Məhz bu strateji baxış sayəsində 1969-cu ildən etibarən aqrar sahədə köklü transformasiya prosesinə start verilib".

L.Qasımov qeyd edib ki, həmin dövrdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində kənd təsərrüfatında elmi yanaşma gücləndirilib, məhsuldarlığın artırılması üçün innovativ üsullar tətbiq edilib, regionların ixtisaslaşması və resurslardan səmərəli istifadə təmin edilib: "Nəticədə, 1970-1980-ci illərdə aqrar istehsalda çoxşaxəli artım müşahidə edilib, iqtisadi səmərəlilik əhəmiyyətli dərəcədə yüksəlib. Bu, yalnız statistik göstəricilərdə deyil, kənd əhalisinin həyat səviyyəsində də real əksini tapıb".

Natiq diqqətə çatdırıb ki, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində baş verən böhran aqrar sahədən də yan keçməyib, istehsalın azalması və idarəetmədə qeyri-sabitlik müşahidə olunub: "Belə mürəkkəb şəraitdə Ulu Öndərin hakimiyyətə qayıdışı ilə kənd təsərrüfatında yeni inkişaf mərhələsinin əsası qoyulub. 1995-1996-cı illərdə qəbul edilən fundamental qanunvericilik aktları kənd təsərrüfatında bazar münasibətlərinin formalaşmasına hüquqi əsas yaradıb, torpaq islahatı ilə mülkiyyət münasibətlərində köklü dəyişikliklər baş verib və sahibkarlığın inkişafına yeni imkanlar açılıb. "Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu strateji xətt yeni çağırışlara uyğun şəkildə modernləşdirilərək uğurla davam etdirilir. Aqrar sahədə tətbiq olunan innovativ yanaşmalar, rəqəmsallaşma və dövlət-özəl tərəfdaşlığı mexanizmləri kənd təsərrüfatını daha rəqabətli və dayanıqlı sektora çevirir. Hazırda aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi, "ağıllı kənd" konsepsiyası, innovativ suvarma sistemləri və aqroparkların yaradılması kənd təsərrüfatının keyfiyyətcə yeni mərhələyə keçidini təmin edir. Bu isə məhsuldarlığın artırılması ilə yanaşı, resurslardan daha səmərəli istifadə imkanları yaradır".

Çıxış edən siyasi və dövlət xadimi, tarix elmləri doktoru Həsən Həsənov Ulu Öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcəyi ilə bağlı gördüyü işlərdən bəhs edərək vurğulayıb ki, onun idarəçilik təcrübəsi, siyasi iradəsi, liderlik keyfiyyətləri hər bir çətinliyin öhdəsindən uğurla gəlməsini şərtləndirib.

H.Həsənov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm dövlətçilik tariximizdə mühüm yer tutur: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. O, 1969-cu ildə hakimiyyətə gələnə qədər Azərbaycan inkişaf baxımından keçmiş ittifaq respublikaları arasında sonuncu yerləri bölüşürdü. Lakin Heydər Əliyevin respublikamıza rəhbər seçilməsindən sonra qısa müddət ərzində Azərbaycan ön sıralara çıxdı".

Natiq diqqətə çatdırıb ki, Ulu Öndər daim xalqımızın rifahı üçün çalışıb. "Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində Azərbaycanı dünyaya tanıtdırdı. Bu gün də Heydər Əliyev yolu Azərbaycanın ardıcıl nailiyyətlərinin əsasını təşkil edir. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir, ölkəmiz tarixi uğurlara imza atır", - deyə Həsən Həsənov qeyd edib.

Sonra partiya sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

***"Azərbaycan"***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

**Ulu Öndər Heydər Əliyev müasir dövlətçilik tarixində müstəsna rol oynamış, milli maraqları daim ali dəyər kimi ön planda saxlamış dahi şəxsiyyətdir. Onun çoxşaxəli fəaliyyəti yalnız bir dövrün deyil, uzunmüddətli və davamlı inkişaf modelinin formalaşdırılması ilə səciyyələnir. Qətiyyətli siyasi iradəsi, uzaqgörən strateji baxışı və zəngin idarəetmə təcrübəsi nəticəsində Ümummilli Lider sabitlik, tərəqqi və dayanıqlı inkişaf üçün möhkəm və sarsılmaz təməl yaratmışdır.**



# Heydər Əliyev yolu: sabitlik, inkişaf və zəfərin təməli

Ümummilli Lider Heydər Əliyevin sovet dövründəki fəaliyyəti respublikanın sosial-iqtisadi inkişafında dönüş mərhələsi kimi dəyərləndirilir. 1969-cu ildən başlayaraq həyata keçirilən məqsədyönlü siyasət nəticəsində sənayeləşmə prosesi sürətlənmiş, yeni istehsal sahələri yaradılmış, mövcud müəssisələr modernləşdirilmişdir. Kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün geniş proqramlar icra olunmuş, suvarma və meliorasiya sistemləri inkişaf etdirilmişdir. Regionların inkişafı istiqamətində mühüm addımlar atılmış, infrastruktur layihələri həyata keçirilmiş, yaşayış şəraiti yaxşılaşdırılmışdır. Eyni zamanda milli kadrların hazırlanması sahəsində həyata keçirilən siyasət nəticəsində gənclər yüksəkixtisaslı mütəxəssislər kimi formalaşmış, elm və təhsil sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı dövlətçiliyin xilası kimi tarixə düşdü. Bu dövrdə ölkədə qeyri-sabitlik, iqtisadi tənəzzül və idarəetmədə yaranmış böhran qısa müddətdə aradan qaldırıldı. Dövlət qurumlarının fəaliyyəti bərpa edildi və hüquqi idarəetmə mexanizmləri möhkəmləndirildi. Milli birlik və həmrəylik gücləndirildi, dövlətin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi.

1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən neft sazişi yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi baxımdan da mühüm dönüş nöqtəsi oldu. Bu saziş Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün geniş imkanlar yaratdı və beynəlxalq enerji şirkətlərinin uzunmüddətli əməkdaşlığını təmin etdi. Sazişin imzalanması ilə ölkəyə milyardlarla dollar həcmində xarici investisiya axını başlandı, yeni neft infrastrukturunun yaradılması, müasir texnologiyaların tətbiqi və hasilatın səmərəliliyinin artırılması istiqamətində ciddi addımlar atıldı. Bununla yanaşı, enerji resurslarının dünya bazarlarına təhlükəsiz və alternativ marşrutlarla nəqli üçün iri boru kəməri layihələrinin əsası qoyuldu ki, bu da regionun enerji xəritəsində strateji mövqenin güclənməsinə səbəb oldu. "Əsrin müqaviləsi" iqtisadiyyatın şaxələndirilməsi üçün maliyyə imkanları yaratdı, qeyri-neft sektorunun inkişafına təkan verdi və sosial layihələrin maliyyələşdirilməsində mühüm rol oynadı. Eyni zamanda bu saziş beynəlxalq iqtisadi münasibətlərdə etibarlı tərəfdaş imicinin formalaşmasına, qlobal enerji təhlükəsizliyinə töhfə verilməsinə və uzunmüddətli sabit inkişaf modelinin qurulmasına zəmin yaratdı.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrimiz köklü şəkildə yenidən formalaşdırıldı və vahid komandanlıq prinsipi təmin edildi. Bu yanaşma orduda idarəetmənin mərkəzləşdirilməsinə, qərarların operativ qəbuluna və icra mexanizmlərinin daha səmərəli işləməsinə şərait yaratdı. Döyüş qabiliyyətinin artırılması istiqamətində hərbi hissələrin komplektləşdirilməsi, döyüş hazırlığının yüksəldilməsi, taktiki və strateji planlaşdırmanın təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirildi. Maddi-texniki təminatın gücləndirilməsi məqsədilə silah və texnika parkı yeniləndi, hərbi infrastruktur genişləndirildi, şəxsi heyətin sosial təminatı yaxşılaşdırıldı. Peşəkar hərbi kadrların hazırlanması istiqamətində ali hərbi təhsil sisteminin inkişafına xüsusi diqqət yetirildi, zabit korpusunun formalaşdırılması üçün məqsədyönlü proqramlar həyata keçirildi. Bu tədbirlər nəticəsində müasir tələblərə cavab verən, intizamlı və çevik ordu modelinin əsası qoyuldu və gələcək uğurlar üçün möhkəm baza yaradıldı.

1995-ci il noyabrın 12-də referendum (ümumxalq səsverməsi) nəticəsində Konstitusiyanın qəbul edilməsi hüquqi dövlət quruculuğunda mühüm və taleyüklü mərhələ kimi tarixə düşdü. Bu sənəd dövlətin siyasi və hüquqi sisteminin əsaslarını müəyyənləşdirərək demokratik idarəetmə prinsiplərini təsbit etdi. Konstitusiyada insan hüquq və azadlıqlarının qorunması ali məqsəd kimi müəyyən olundu, vətəndaşların hüquqi statusu, dövlət orqanlarının səlahiyyət bölgüsü və fəaliyyət mexanizmləri dəqiq şəkildə müəyyənləşdirildi. Qanunun aliliyi prinsipi təsbit olunaraq hüquqi dövlətin formalaşmasına zəmin yaradıldı, məhkəmə-hüquq sistemi üçün müasir çərçivə müəyyən edildi. Bu sənəd eyni zamanda vətəndaş cəmiyyətinin inkişafına, siyasi plüralizmin təmin olunmasına və dövlət idarəçiliyində şəffaflığın artırılmasına mühüm töhfə verdi. Konstitusiyanın qəbulu ilə hüquqi islahatların həyata keçirilməsi üçün möhkəm baza formalaşdı və dövlət idarəçiliyinin sabitliyi təmin olundu.

Sosial-iqtisadi sahələrdə aparılan islahatlar kompleks xarakter daşıyaraq əhalinin rifah halının yüksəldilməsinə və davamlı inkişafın təmin olunmasına yönəldildi. Sosial siyasət çərçivəsində pensiya sistemi yenidən quruldu, əməkhaqqı mərhələli şəkildə artırıldı, əhalinin həssas təbəqələrinin sosial müdafiəsi gücləndirildi. Müxtəlif sosial proqramlar vasitəsilə vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılması, məşğulluğun artırılması və sosial bərabərliyin təmin olunması istiqamətində mühüm addımlar atıldı. İqtisadi sahədə isə bazar münasibətlərinə keçid sistemli şəkildə həyata keçirildi, dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi genişləndirildi, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli hüquqi və institusional mühit yaradıldı. Vergi və maliyyə siyasətində aparılan islahatlar iqtisadi sabitliyin möhkəmlənməsinə, büdcə gəlirlərinin artmasına və investisiya mühitinin yaxşılaşmasına xidmət etdi. Xarici investisiyaların cəlb olunması, ixrac potensialının genişləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar ölkənin uzunmüddətli iqtisadi inkişafını təmin edən əsas faktorlar kimi çıxış etdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmiş və bu sahədə kompleks islahatlar həyata keçirilmişdir. Mövcud səhiyyə sisteminin yenidən qurulması, tibbi xidmətlərin keyfiyyətinin artırılması və əhalinin sağlamlığının qorunması məqsədilə genişmiqyaslı tədbirlər görülmüşdür. İlk növbədə səhiyyə infrastrukturunun bərpası və inkişafı istiqamətində ciddi addımlar atılmış, xəstəxanalar, poliklinikalar və digər tibb müəssisələri əsaslı şəkildə yenidən qurulmuş və müasir tələblərə uyğunlaşdırılmışdır.

Regionlarda səhiyyə xidmətlərinin əlçatanlığının artırılması xüsusi diqqət mərkəzində saxlanılmışdır. Kənd və rayon yerlərində yeni tibb müəssisələrinin yaradılması, mövcud olanların maddi-texniki bazasının gücləndirilməsi və tibbi kadrlarla təminatın yaxşılaşdırılması nəticəsində əhali üçün tibbi xidmətlər daha əlçatan olmuşdur. Bu yanaşma əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsində və sosial bərabərliyin təmin olunmasında mühüm rol oynamışdır.

Səhiyyə sistemində profilaktik tədbirlərin genişləndirilməsi də prioritet istiqamətlərdən biri olmuşdur. Xəstəliklərin qarşısının alınması məqsədilə peyvənd proqramları genişləndirilmiş, əhalinin tibbi müayinələrə cəlb olunması təşviq edilmiş, maarifləndirmə işləri gücləndirilmişdir. Bu tədbirlər nəticəsində yoluxucu və qeyri-yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir tibbi texnologiyaların tətbiqi genişləndirilmişdir. Diaqnostika və müalicə sahəsində yeni avadanlıqların istifadəsi təmin edilmiş, qabaqcıl müalicə metodları tətbiq olunmuşdur. Eyni zamanda tibb işçilərinin peşə hazırlığının artırılması istiqamətində sistemli tədbirlər görülmüş, onların ixtisasartırma kurslarına cəlb olunması təmin edilmişdir. Bu amillər səhiyyə xidmətlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasına mühüm töhfə vermişdir.

Bütün bu tədbirlər səhiyyə sisteminin dayanıqlı inkişafını təmin etmiş, əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşmasına və həyat keyfiyyətinin yüksəlməsinə mühüm təsir göstərmişdir. Heydər Əliyevin müəyyən etdiyi səhiyyə siyasəti sonrakı dövrlərdə daha da inkişaf etdirilmiş və müasir tələblərə uyğunlaşdırılmışdır.

Təhsil sahəsində həyata keçirilən islahatlar nəticəsində bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmiş və sistemli şəkildə inkişaf etdirilmişdir. Yeni məktəblərin tikilməsi və mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması nəticəsində təhsil infrastrukturu müasir tələblərə uyğunlaşdırılmış, şagird və müəllimlər üçün daha əlverişli tədris mühiti yaradılmışdır. Maddi-texniki bazanın gücləndirilməsi çərçivəsində məktəblər müasir avadanlıqlarla təmin edilmiş, informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası genişləndirilmişdir. Təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kurikulum islahatları aparılmış, yeni tədris metodları tətbiq olunmuş, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün ixtisasartırma proqramları həyata keçirilmişdir. Gənclərin keyfiyyətli təhsil alması üçün geniş imkanlar yaradılmış, onların xarici ali təhsil müəssisələrində təhsil almalarına dəstək verilmiş, bu da gələcəkdə yüksəkixtisaslı kadr potensialının formalaşmasına mühüm təsir göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin xarici siyasət strategiyası milli maraqlara əsaslanan, praqmatik və balanslaşdırılmış yanaşma ilə səciyyələnmişdir. Bu strategiya çərçivəsində müxtəlif dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurulmuş, beynəlxalq təşkilatlarla əlaqələr genişləndirilmiş və çoxtərəfli diplomatik platformalarda fəal iştirak təmin edilmişdir. Enerji və nəqliyyat layihələri vasitəsilə regionun strateji əhəmiyyəti artırılmış, ölkə qlobal iqtisadi sistemin mühüm iştirakçılarından birinə çevrilmişdir. Xüsusilə enerji diplomatiyası vasitəsilə beynəlxalq tərəfdaşlarla etibarlı münasibətlər formalaşdırılmış, resursların dünya bazarlarına çıxarılması təmin edilmişdir. Bu siyasət nəticəsində beynəlxalq aləmdə etibarlı tərəfdaş imici möhkəmlənmiş, xarici ölkələrlə siyasi və iqtisadi əlaqələr daha da dərinləşmişdir.

Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə - müasir çağırışlara uyğun davam etdirilmişdir. Bu siyasətin nəticəsi olaraq Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi Qələbə əldə etmiş, uzun illər davam edən münaqişəyə son qoymuşdur. Müasir ordu quruculuğu, güclü iqtisadi potensial və milli birlik bu Qələbənin əsas amilləri kimi çıxış etmişdir. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenlik tam bərpa olunmuş, dövlətin bütün ərazilərində konstitusiya quruluşu təmin edilmişdir. Bu proseslər dövlətin gücünü və qətiyyətini bir daha nümayiş etdirmişdir.

*Əldə olunan bütün uğurların əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xətti dayanır. Bu kursun ardıcıl şəkildə davam etdirilməsi nəticəsində dövlət idarəçiliyi daha da təkmilləşdirilmiş, sosial-iqtisadi sahələrdə davamlı inkişaf təmin olunmuşdur. Beynəlxalq mövqelər möhkəmlənmiş, regionda və qlobal miqyasda nüfuz artmışdır. Milli maraqların qorunması və təmin olunması istiqamətində həyata keçirilən siyasət ölkənin gələcək inkişafı üçün möhkəm zəmin yaratmış, sabitlik və tərəqqi üçün etibarlı əsas formalaşdırmışdır.*

**_Müşfiq MƏMMƏDLİ,_**
**_Milli Məclisin deputatı_**

# Heydər Əliyev və milli məfkurə

**Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görürük.**

Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi dəyərlərin inkişafında dönüş mərhələsi başladı, elm, təhsil, mədəniyyət və incəsənətin tərəqqisində böyük nailiyyətlərin bünövrəsi qoyuldu. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini, milli-mənəvi dəyərlərini və soykökünü dərindən öyrənməsi, azərbaycançılıq məfkurəsinin inkişafı üçün əlverişli şərait yarandı, ziyalılar, elm, mədəniyyət, incəsənət, ədəbiyyat nümayəndələri milli ideya ətrafında səfərbər edildi. Ümummilli Lider milli-mənəvi dəyərlərin tərkib hissələrindən biri olan mütərəqqi dini dəyərlərin cəmiyyətdə özünə mühüm yer tutması üçün məqsədyönlü siyasət həyata keçirməyə başladı.

Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərə azərbaycançılıq ideyasının tərkib hissələrindən biri kimi yanaşmışdır. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən dahi öndər milli-mənəvi dəyərlərin inkişafını müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi qiymətləndirmişdir. Vətəninin, xalqının adını ucaldanlar, mənəvi aləmimizi zənginləşdirən, milli vəhdətimizi təmin edən dəyərlərimiz sayəsində var olmuşuq və bu gün də varıq. Hər bir şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin böyük rolu var. Əbəs yerə ailəni kiçik dövlətə bənzətmirlər. Əsas dəyərlər ailədə formalaşmağa başlayır. Böyüklərə hörmət və ehtiram, xalqın milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə rəğbət öyrədilən ailə adlı müqəddəs ocaqda böyüyüb boya-başa çatan, təhsil aldığı məktəblərdə elmi biliklərə yiyələnməklə bərabər, həm də vətəndaşlıq ruhunda formalaşan gənclər ölkəsinin, xalqının adını daha da yüksəklərə qaldırırlar. Vaxt gəlir doğma Vətəni, xalqı da onlarla qürur duyur. Eynilə Vətən müharibəsində olduğu kimi…

Vətən müharibəsində Azərbaycan Ordusu təkcə düşmənlərinə deyil, bütün dünyaya qəhrəmanlığını, yenilməzliyini göstərdi. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan ərazilərimizi azad edən, yağı düşmənin işğalına son qoyan Azərbaycan oğulları igidliyin, cəsurluğun, vətənpərvərliyin simvolu oldular. Respublikamızda yaşayan bütün xalqlar, etnik qruplar bir amal, bir məqsəd ətrafında sıx birləşdilər. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, bu ölkənin vətəndaşı olan hər kəs doğma Vətəni Azərbaycanın ərazi bütövlüyü naminə ayağa qalxdı. Göstərdilər ki, tolerantlıq və multikultural dəyərləri ilə bütün dünyaya nümunə olan Azərbaycanın qələbə və uğur dolu günləri bundan sonra da davam edəcək.

Milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, Azərbaycan dilinin inkişafı, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi və digər məsələlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Prezident cənab İlham Əliyev milli-mənəvi dəyərlər əsasında ölkəmizin müasirləşməsini nəzərdə tutaraq bildirmişdir: "Müasirlik, yenilik və eyni zamanda milli dəyərlərə, milli köklərə bağlılıq. Bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq".

Prezident İlham Əliyevin "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında 2026-cı il yanvarın 14-də imzaladığı sərəncam ölkəmizin mədəni inkişaf tarixində mühüm mərhələdir. Konsepsiya təkcə mədəniyyət sahəsinin uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirmir, eyni zamanda milli kimliyin qorunması, qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin rəqabət qabiliyyətinin artırılması və gələcək nəsillərə ötürülməsi baxımından fundamental əhəmiyyət daşıyır.

Sənəddə mədəniyyətin cəmiyyətin inkişafında aparıcı rolunun xüsusi vurğulanması, yaradıcı potensialın üzə çıxarılması, innovativ yanaşmaların təşviqi və mədəni təhsilin gücləndirilməsi məsələlərinin ön plana çəkilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan "Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyası yalnız bu günü deyil, gələcək nəsillərin mədəni düşüncə və estetik zövqünün formalaşmasını da hədəfləyən uzaqgörən bir baxışın ifadəsidir. Təbii ki, bu mühüm strateji sənəd mədəniyyət və incəsənət təhsilinin keyfiyyətinin yüksəldilməsinə, yaradıcı gənclərin yetişdirilməsinə, milli mədəniyyətimizin beynəlxalq miqyasda daha geniş təbliğinə ciddi töhfələr verəcək. Konsepsiyanın ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ölkəmizin mədəni həyatında yeni bir inkişaf mərhələsinin də başlanğıcı olacaq. Konsepsiyada Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinə, onun mahiyyətcə inkişafına, həmçinin beynəlxalq səviyyədə təbliğinə və təşviqinə ehtiyac olduğu diqqətə çatdırılır. Bu istiqamətdə görüləcək tədbirlərə Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi kimi məsələlər daxildir. "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyası ölkəmiz qarşısında yeni prioritetlər təyin edərək cəmiyyətin hər üzvünü ölkənin mədəni həyatında fəal iştiraka səsləyir. Bütün bunlar qədimlərdən bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir. Prezident İlham Əliyevin imzaladığı bu sərəncam dövlətin mədəniyyət siyasətində ardıcıllığı, uzaqgörənliyi və milli kimliyə verdiyi yüksək dəyəri bir daha nümayiş etdirir. "Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyası Azərbaycan mədəniyyətinin gələcək onilliklərdə davamlı inkişafını təmin edən yol xəritəsi olmaqla yanaşı, həmçinin milli irsimizin qorunaraq gələcək nəsillərə ötürülməsinə xidmət edən mühüm strateji sənəd kimi də dəyərləndirilməlidir. Müasir dünyada mədəniyyət təkcə irs və ənənələrin qorunması ilə məhdudlaşmır. O, cəmiyyətlərin daxili dayanıqlılığını və xalqların qlobal rəqabətdə mövqeyini müəyyən edən əsas amillərdən biri kimi diqqət çəkir. Bu baxımdan "Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyası regional və qlobal çağırışlar fonunda mədəniyyəti milli inkişafın aparıcı sütunlarından biri olaraq təsdiq edir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün Ulu Öndərin adını şərəflə daşıyan fondun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə qayğı, onların qorunması və təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun muğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, eləcə də işğaldan azad edilmiş ərazilərdə mədəniyyət ocaqlarının, tarixi abidələrin bərpası, milli-mənəvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca əhəmiyyətlidir. Heydər Əliyev Fondunun elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələr milli-mənəvi dəyərlərimizin nəinki ölkəmizdə, bütün dünyada təbliğ olunmasında böyük əhəmiyyət daşıyır. Xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən mühüm töhfələrdən biri olan muğam sənətinin yaşadılmasında, öyrənilməsində və gələcək nəsillərə çatdırılmasında Mehriban xanım Əliyevanın gördüyü işləri xüsusi qeyd etməliyik. Ötən illər ərzində fondun dəstəyi ilə xeyli sayda məscid bərpa olunaraq istifadəyə verilmişdir. Fondun milli-mənəvi dəyərlərin dünyada təbliği istiqamətində atdığı addımlar xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin özününküləşdirməsi kimi mənfur niyyətlərinin qarşısını alır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində fondun xətti ilə milli-mənəvi irsin qorunması sahəsində çoxsaylı layihələr həyata keçirilir ki, onları xalqımızın ziyalıları, mədəniyyət və incəsənət xadimləri yüksək qiymətləndirirlər.

*Xalqımızın milli-mənəvi dəyərləri tarixi varislik prinsipinə əsaslanaraq inkişaf edir və onlar dünya mədəniyyətinin zənginləşməsində xüsusi yer tutur. Milli-mənəvi dəyərlərin qorunması və təbliği Azərbaycan dövlətinin apardığı siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizdəki mədəniyyətlərarası və dinlərarası dialoq milli-mənəvi dəyərlərin inkişafında böyük əhəmiyyət daşıyır. Azərbaycan dilinin, ədəbiyyat və incəsənətinin inkişafı, adət-ənənələrin, mütərəqqi dini dəyərlərin ictimai həyatda özünə mühüm yer tutması milli-mənəvi dəyərləri zənginləşdirir. Xalqımızın milli-mənəvi irsinin dünyada təbliği ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynayır. Ölkəmizdə milli dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, Ulu Öndərin müqəddəs irsinə dərin hörmətin təzahürü, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azadlıq və müstəqillik ideallarına, möhkəm milli bünövrəyə malik zəngin mənəvi irsinin təbliği işinə də böyük töhfədir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: "Milli dəyərləri olmayan millət həqiqi millət, milli dəyərləri olmayan xalq həqiqi xalq ola bilməz. Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Biz öz milli dəyərlərimizlə fəxr edirik".*

**_Sevinc RZAYEVA,_**
**_Naxçıvan Dövlət Universitetinin baş müəllimi_**

# Ağverəndəki görüş sülh prosesinin növbəti uğurudur



Aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 13-cü iclası keçirilib. Tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıb və delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair təlimat layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər.

Sonda komissiyaların görüşünün yekunlarına dair müvafiq protokol imzalanıb.Tərəflər komissiyaların Azərbaycanda növbəti iclasının tarixinin işçi qaydada müəyyən edilməsi barədə razılığa gəliblər.

Azərbaycan nümayəndə heyətinin Ermənistana səfəri barədə qəzetimizə danışan Milli Məclisin komitə sədri Tahir Rzayev bildirib ki, 2025-ci il avqustun 8-də Vaşiqntonda imzalanmış birgə bəyannamə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında mühüm mərhələ olaraq sülh müqaviləsinin bağlanılmasına imkanlar yaradıb: "Bu imkanlar sonrakı görüşlərdə, danışıqlarda, bəyanatlarda daha da genişləndirilib. Hər iki ölkənin QHT nümayəndələrinin qarşılıqlı səfərləri, Azərbaycan ərazisindən Ermənistana yüklərin daşınmasına icazə verilməsi, xarici işlər nazirləri səviyyəsində təmasların qurulması, dövlət sərhədlərinin delimitasiyası üzrə işlərin sürətləndirilməsi, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın genişləndirilməsi sahəsində təşəbbüslər, çağırışlar sülhə ümidləri artırır".

Deputat qeyd edib ki, aprelin 29-da Ağverəndə hər iki ölkənin baş nazirlərinin müavinlərinin sədrliyi ilə dövlət sərhədlərinin delimitasiyası və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə üzrə dövlət komissiyalarının iclaslarının keçirilməsi sülh sazişinin bağlanılmasına bir daha zəmin yaradır. Görüş səmərəli keçib və tərəflər delimitasiya proseslərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə fikir mübadiləsi aparıblar. Eyni zamanda Azərbaycan ərazisindən Ermənistana yüklərin daşınmasını, neft məhsullarının tədarük edilməsini müsbət qiymətləndirməklə, iqtisadi, ticari əməkdaşlığın, tranzit daşımalarının zəruri olduğunu bildiriblər.

T.Rzayev vurğulayıb ki, bu görüş iki ölkə arasında etimad mühitinin formalaşmasına xidmət edir və Ermənistan-Azərbaycan arasında ilkin sülh müqaviləsinin imzalanması istiqamətində atılan müsbət addım kimi dəyərləndirilməlidir: "Dövlət komissiyalarının fəaliyyətinin dinamik xarakter alması və müəyyən məsələlərdə razılığın əldə edilməsi sülhü daha da yaxınlaşdırır.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

# Okamponun etirafları Avropa idarəçilik sisteminin təsir altında olduğunu sübut edir

**"Luis Okampo adı Azərbaycan cəmiyyətinə yaxşı tanışdır. Hər zaman erməni lobbisinin maliyyəsi ilə Azərbaycan əleyhinə kampaniyaların əsas icraçılarından olan BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru Luis Okampo bu dəfə açıq şəkildə özünü ifşa edib. Belə ki, yayılan videomateriallarda Okampo açıq şəkildə etiraf edir ki, Azərbaycana qarşı hər zaman qərəzli mövqedə dayanan Avropa İttifaqı rəsmisi Cozef Borellə eyni cəbhədə olub. Hətta Ursula fon der Lyayenə də təsir etmək iqtidarındadırlar".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Könül Nurullayeva deyib. O bildirib ki, Okampo COP29 zamanı Erməni Milli Komitəsi ilə sosial media üzərindən Azərbaycana qarşı qarayaxma kampaniyasının önündə gedənlərdəndir. Bir daha aydın olur ki, Okampo və onun oğlu Tomas uzun müddətdir siyasi sifarişlərin icrası ilə məşğuldurlar. Bu çirkli işlərin icrası üçün onlar özlərinə xüsusi şəbəkə qurublar. "Avropa Parlamentində mən müraciət edə, etiraz edə, birbaşa suallar ünvanlaya və Ursula fon der Lyayenə təzyiq göstərə bilərəm, beləcə Avropa siyasətinə təsir etmək mümkündür" deyən Okamponun etirafları sayəsində Avropa idarəçilik sisteminin təsir altında olmasına heç bir şübhə yeri qalmır.

Deputat qeyd edib ki, bu şəbəkə hətta Ermənistanın daxili siyasi proseslərinə yönəlmiş müdaxilə planlarını da gizlətmir: "Videomaterialda Nikol Paşinyan hakimiyyətinin devrilməsi ilə bağlı konkret planların olduğu etiraf olunur. Məsələnin maliyyə tərəfinə gəlincə, burada Rusiyada fəaliyyət göstərən erməni mənşəli oliqarxların adı hallanır. Əslində, Avropa strukturlarında korrupsiyanın miqyası heç kəsə sirr deyil. Borelin kimə xidmət etdiyi də məlumdur".

K.Nurullayeva vurğulayıb ki, Okamponun məqsədi Avropa Məhkəməsi vasitəsilə Avropa Komissiyasını Azərbaycanla müqavilənin ləğvinə məcbur etmək və ABŞ-dəki erməni lobbisi ilə əlaqəli şəkildə ölkəmizə təzyiqi artırmaqdır. Hər zaman olduğu kimi, burada da "insan hüquqları"ndan soyuq silah kimi istifadə olunur. Yeri gəlmişkən, bir müddət əvvəl Aİ-nin Ermənistana hibrid təhdidlərə qarşı mübarizə üçün qrup göndərməsi də bu kampaniyanın tərkib hissəsidir. "Bu, bir daha göstərir ki, Cənubi Qafqazda yeni reallıqları həzm etməyən, sülh prosesini pozmaqda maraqlı olan qərəzli qüvvələr var. Lakin Azərbaycan heç bir halda regionda bu destruktiv fəaliyyətin mövcud sülh vəziyyətini pozmasına imkan verməyəcək", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sülh, yoxsa xəstə təfəkkür

## Erməni cəmiyyəti bunlardan hansını seçəcək?

**Cənubi Qafqaz bu gün tarixinin ən həlledici kəsişmələrindən birindədir. Azərbaycanın liderliyi və qətiyyəti sayəsində regionda yaranmış de-fakto sülh artıq real iqtisadi və siyasi bəhrələrini verməyə başlayıb.**

Lakin bu sülhün daimi olması və Ermənistanın bir dövlət kimi gələcək taleyi yaxın vaxtlarda keçiriləcək parlament seçkilərində erməni xalqının verəcəyi qərardan da asılı olacaq. Yəni bəlli olacaq ki, erməni cəmiyyəti sülhü seçib rifaha addım atacaq, yoxsa xəstə təfəkkürün arxasınca düşüb özünü yenə uçuruma sürükləyəcək.

### Tarixi fürsət

Azərbaycan 2020-ci il Vətən müharibəsindən sonra Ermənistana təkcə sülh deyil, həm də xilas yolu təklif etdi. Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişi mətninin paraflanması həm də bölgənin inkişaf və tərəqqisi üçün atılan təməl addım oldu. Həmin zaman açılması ilə bağlı razılıq əldə olunan Zəngəzur dəhlizi (TRIPP) təkcə regional deyil, beynəlxalq əhəmiyyəti ilə də diqqət çəkir. Ermənistanın konstitusiyası dəyişdirilərək ölkəmizə qarşı ərazi iddiası ortadan qaldırılandan sonra qısa müddətdə sülh müqaviləsi də imzalanacaq. Bölgədə dayanıqlı sülhə nail olmaq üçün proseslər, sadəcə, siyasi müstəvidə aparılmır. Sülhün vacib şərti olan qarşılıqlı etimad quruculuğu istiqamətində də əməli addımlar atılır.

Qətiyyət və səyləri ilə Cənubi Qafqazda faktiki olaraq sülhü bərqərar edən ölkəmiz bununla onilliklər boyu yürütdüyü işğalçılıq siyasəti ilə özünü dalan ölkəyə çevirən Ermənistanın ağır vəziyyətdən qurtulması üçün də mühüm tarixi fürsət yaradıb. Azərbaycanın Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması, iki ölkə arasında ticari əlaqələr qurulması da buna nümunədir.

Ötən ilin oktyabrında Prezident İlham Əliyev Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırıldığı barədə məlumat verərkən demişdir: "Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

Azərbaycanın sülhməramlı liderliyinin ən mühüm göstəricilərindən biri də "Sülh körpüsü" təşəbbüsüdür. Belə ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

Amma hələ qarşıda normallaşma ilə bağlı qət ediləsi xeyli yol var. Ermənistan cəmiyyətinin burada hansı istiqamətə üz tutacağı da vacib rol oynayır. Nədən ki, son altı ildə regionda proseslərin sülhə doğru yön almasının fonunda Ermənistandakı revanşist qüvvələrin baş qaldırması, onların yenidən Cənubi Qafqazı münaqişə ocağına çevirmək cəhdləri müşahidə olunur. Həmin qüvvələr ki, onların arasında kilsə də baş rol oynayır, onilliklər boyu sərsəm ideyalarla beyinlərini zəhərləyib müharibəyə, faciələrə sürüklədikləri erməni xalqını yenidən eyni üsulla uçuruma yuvarlamağa çalışıblar.

"Miatsum", "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq kimi xəstə təfəkkürün məhsulları olan ideyalar ortaya ataraq Ermənistanı bir dövlət kimi yox olmaq təhlükəsi ilə üz-üzə qoyan, demoqrafik böhrana, xalqın səfalətinə səbəb olanların özlərinin ötən illər ərzində sərvətlərinə sərvət qatmaları da gerçəklikdir.

İndi də revanşistlərin təklif etdiyi yol Cənubi Qafqazın yenidən qan-qada ocağına çevrilməsini və Ermənistanın dövlət olaraq yox olmasını vəd edir. O da bir ayrı gerçəklikdir ki, iqtisadi bataqlıqda çabalayan Ermənistanın nə bu gün, nə də qarşıdakı illərdə Azərbaycanla müharibə etmək iqtidarı var. Bu reallığı revanşistlərin özləri də yaxşı anlayırlar.

Buna görə də erməni xalqı yeni müharibə haqqında deyil, öz gələcəyi, sosial-iqtisadi inkişafı barədə düşünsə, daha yaxşı olar.

### Revanşizmi dəstəkləmək "dalan ölkə" statusunun əbədiləşməsi deməkdir

Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş, dünyanın enerji və nəqliyyat qovşağına çevrilmiş nüfuzlu dövlətdir. İşğaldan azad edilmiş torpaqlarda həyata keçirilən "Böyük qayıdış" proqramı ölkəmizin gücünü dünyaya nümayiş etdirir. Bu mənada Cənubi Qafqazda cərəyan edən hər hansı hadisənin də ölkəmizin inkişaf dinamikasına təsir göstərməsi mümkün deyil.

Ermənistan üçün isə bunu demək olmaz. Bu ölkənin qarşısında konkret olaraq iki seçim var: ya Azərbaycanın təklif etdiyi sülh modelini qəbul edib inkişaf etmək, ya da revanşist xülyalarla uçuruma yuvarlanmaq.

Bir məqamı da vurğulayaq ki, ABŞ-də paraflanan sülh sazişi mətni və əldə olunan razılaşmalar göstərir ki, dünya artıq yeni reallığı qəbul edir.

Nəhayət, Ermənistan cəmiyyəti də anlamalıdır ki, otuzillik işğalçılıq siyasəti onları regiondakı bütün böyük iqtisadi layihələrdən kənarda qoyub. Hazırda gündəmdə olan Zəngəzur dəhlizi (TRIPP) həmçinin Ermənistanın blokadadan çıxması və iqtisadi dirçəlişi üçün yeganə şansdır. Sülhü seçmək iqtisadi yüksəliş, yeni iş yerləri və qonşularla normal münasibətlər deməkdir. Revanşizmi seçmək isə daha dərin səfalət, demoqrafik böhran və "dalan ölkə" statusunun əbədiləşməsi deməkdir.

Qarşıdakı seçkilərdə Ermənistan vətəndaşı seçkiyə gedərkən düşünməlidir ki, revanşistləri dəstəkləmək Ermənistanı bir dövlət kimi intihara sürükləməkdir.

Bir daha vurğulayırıq ki, Azərbaycan üçün dəyişən heç nə olmayacaq. Bakı öz şərtlərini diktə edib və sülh gündəmini müəyyənləşdirib. Əgər İrəvan yenidən münaqişə yolunu seçsə, iqtisadi blokada daha da sərtləşəcək və Ermənistan bütün qlobal layihələrdən təcrid olunacaq.

Bir sözlə, erməni cəmiyyəti ya sülhü seçib sözün əsl mənasında süfrəsinə gələn Azərbaycan çörəyini və iqtisadi inkişafı qazanacaq, ya da xəstə təfəkkürlərin qurbanı olub tarixin tozlu səhifələrində yox olacaq. Seçim zamanıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Erməni lobbisinin gizli təsir rıçaqları ifşa olunur

## Avropa institutlarının keçmiş təmsilçiləri çirkin əməllərini, korrupsiya oyunlarını özləri etiraf edirlər

**Beynəlxalq münasibətlər sistemi adətən tərəfsizlik, hüququn aliliyi və şəffaflıq kimi fundamental prinsiplər üzərində bərqərar olduğunu iddia edir. Lakin zaman-zaman gündəmə gələn siyasi qalmaqallar bu prinsiplərin arxasında lobbi qruplarının, qaranlıq maliyyə şəbəkələrinin və şəxsi maraqların dayandığını sübuta yetirir. Hazırda dünya mediasının diqqət mərkəzində olan və beynəlxalq ictimaiyyətdə şok effekti yaradan "Okampo hadisəsi" məhz bu cür sistemli çürümənin təzahürüdür. Bu, Avropa institutlarının dərinliklərinə qədər işləmiş korrupsiya şəbəkəsinin, "insan hüquqları" maskası altında gizlənən geosiyasi alverin və erməni lobbisinin çirkli maliyyə rıçaqlarının çılpaq mənzərəsidir.**



Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən, Beynəlxalq Ədalət Məhkəməsinin keçmiş prokuroru Luis Okampo və oğlu Tomas Okampo qalmaqallı videogörüntülərdə öz mənfur niyyətlərini və bu planları reallaşdırmaq üçün istifadə etdikləri metodları bütün detalları ilə açıq şəkildə etiraf ediblər. Görüntülərdə əsas məqam Avropa siyasətinin erməni lobbisinin birbaşa təsiri altında olduğunun rəsmən təsdiqlənməsidir. Sabiq prokuror Azərbaycana qərəzi ilə tanınan Aİ-nin keçmiş ali komissarı Cozef Borel ilə əlbir fəaliyyət göstərdiyini də gizlətməyib. O, Borel vasitəsilə Avropa Komissiyasının hazırkı rəhbərliyinə təzyiq mexanizmləri quracağını və beləliklə, qitənin siyasi kursuna yön verə biləcəyini iddia edib.

Məlum olub ki, Okamponun əsas hədəflərindən biri Avropa Ədalət Məhkəməsi müstəvisində hüquqi manipulyasiyalar edərək, Avropa Komissiyasının Azərbaycanla imzalanmış strateji müqavilələri ləğv etdirməsi olub. Keçmiş prokuror bu istiqamətdə konkret addımlar atdıqlarını da vurğulayıb: "Biz öncədən müəyyən edilmiş strategiya üzrə hərəkət edirik. ABŞ-dəki erməni lobbisi ilə çiyin-çiyinə fəaliyyət göstərərək təzyiqləri daha da gücləndirəcəyik".

Sensasiyalı videoda diqqətçəkən digər məsələ Ermənistanın daxili siyasi vəziyyəti ilə bağlıdır. Tomas Okampo Ermənistanın baş naziri Nikol Paşinyanı devirmək üçün aktiv iş apardıqlarını etiraf edərək, əsas məqsədlərinin hökumət başçısını hakimiyyətdən uzaqlaşdırmaq olduğunu deyib. Luis Okampo isə bu planın tərkib hissəsi kimi Ermənistanda kütləvi iğtişaşlar və etiraz dalğası yaratmaq məqsədi ilə Avropa strukturlarındakı əlaqələrindən istifadə etdiklərini bildirib. Onun sözlərinə görə, Avropa Parlamentindəki nüfuzlu agentlər vasitəsilə Ermənistanın siyasi rəhbərliyinə qarşı genişmiqyaslı təzyiq kampaniyası həyata keçirilir. Erməni diasporu ilə sıx əlaqələrə malik olan Luis Okampo separatçıların qorunması, Ruben Vardanyanla bağlı kampaniya, Bakıya qarşı qondarma "etnik təmizləmə" kimi ittihamların irəli sürülməsi ilə "məşhurlaşıb". Hazırda Ermənistandakı revanşist qüvvələrin aktivləşməsi, kilsə və erməni diasporunun baş nazir Nikol Paşinyana qarşı birləşməsi Okamponun planlarını təsdiqləyir.

Erməni lobbisinin birbaşa maliyyə dəstəyi və sifarişi ilə idarə olunan genişmiqyaslı kampaniyanın hədəfində təkcə Azərbaycan yox, Cənubi Qafqazda formalaşmaqda olan kövrək sülh dayanır. Çünki sülh erməni diasporunun "ərazi iddiaları" və qondarma "soyqırımı" kimi məsələlərdən faydalanmasını sual altında qoyur, bundan gəlir əldə edən lobbi, siyasətçilər, media rəhbərləri, Avropa strukturlarında müxtəlif vəzifə daşıyan şəxslərin də qazancına təhlükə yaradır.

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində Ermənistan rəhbərliyi regionda yaranmış mövcud reallıqları və Bakının sülh gündəliyini qəbul etmək məcburiyyətində qalıb. Paşinyan hökuməti həqiqəti etiraf edərək, Qarabağın Ermənistana məxsus olmadığını, ermənilərin Qarabağa qayıtmayacağını dəfələrlə vurğulayıb. Xaricdəki erməni lobbisi isə bununla barışmaq istəmir və müxtəlif yollarla satın aldıqları bəzi xarici dairələrin əliylə sülh prosesini pozmağa çalışır. Əlbəttə, lobbi dairələrinin məqsədi heç də ermənilərin rifahını, təhlükəsizliyini təmin etmək, Ermənistanı normal dövlətə çevirmək deyil. Onların niyyəti regionda münaqişəni yenidən alovlandırmaq və öz ambisiyalarını həyata keçirməkdir. Məhz bu səbəbdən Paşinyanı devirməyə cəhd edirlər.

Baş verənlər Avropa qurumlarının illərdir "insan hüquqları" adı altında dünya ictimaiyyətinə sırıdıqları mexanizmlərin böyük lobbi qruplarının, maliyyə şəbəkələrinin və geosiyasi maraqların təsiri altında formalaşdığını bir daha təsdiqləyir. Söhbət təkcə bir şəxsin qalmaqallı açıqlamalarından getmir. Ortaya çıxan mənzərə Avropa institutlarında erməni lobbisinin korrupsiya mexanizmlərindən istifadə etməklə hansı miqyasda təsir imkanları formalaşdırdığını, regionda hansı məkrli ssenarilərin üzərində işlənildiyini aydın şəkildə nümayiş etdirir.

Əslində, erməni lobbisinin Qərb institutlarına təsirləri yeni mövzu deyil. ABŞ-də, Fransada və bir sıra Avropa ölkələrində bu şəbəkənin illərlə formalaşdırdığı siyasi, maliyyə və media əlaqələri məlumdur. Lakin son yayılan videogörüntü göstərir ki, bu təsirlər yalnız təbliğatla, ictimai rəy formalaşdırmaqla məhdudlaşmır. Görünən odur ki, müəyyən dairələr Avropa institutlarını birbaşa siyasi təzyiq alətinə çevirmək, Avropa Parlamentindən və Avropa Komissiyasından region ölkələrinə qarşı geosiyasi təsir mexanizmi kimi istifadə etmək istiqamətində çalışıblar. Dəhşətli mənzərə odur ki, "insan hüquqları" mövzusu açıq şəkildə siyasi təzyiq aləti kimi təqdim olunur. Bu, son illərdə Azərbaycana qarşı aparılan qarayaxma kampaniyalarının mahiyyətini daha aydın göstərir.

Məlum həqiqətdir ki, bəzi Avropa dairələri regiondakı proseslərə hüquqi və obyektiv yanaşmadan daha çox siyasi sifariş prizmasından baxırlar. Qarabağ məsələsində dəfələrlə emosional manipulyasiya, selektiv yanaşma və açıq qərəz nümunələri ortaya qoyulub. İndi isə həmin kampaniyaların arxasında hansı şəbəkələrin dayandığı daha aydın görünməyə başlayır.

Videogörüntülər Avropa İttifaqının (Aİ) ali rəhbərliyində korrupsiyanın nə dərəcədə dərinləşdiyini çılpaqlığı ilə ortaya qoyur. Avropa qurumlarının daxilində kök salmış siyasi korrupsiya mexanizmləri bu gün müxtəlif yüksəksəviyyəli məmurların qeyri-qanuni yollarla varlanması üçün əsas vasitəyə çevrilib. "Transparency International" təşkilatının məlumatına görə, Aİ-də siyasi korrupsiya artmaqdadır və 2023-2025-ci illərdə ən yüksək səviyyəyə çatıb. Avropa Parlamentinin 2004-2007-ci illərdə sədri olmuş Cozef Borel Mərakeş və Qətərdən rüşvət alaraq rəhbərlik etdiyi qurumla bu dövlətlər arasında güzəştli müqavilələrin imzalanmasına nail olmuşdu. 2022-ci ildə Borelə rüşvət ittihamı ilə başlanılan cinayət işinin niyə məntiqi sonluğa çatmadığı indi məlum olur. O dövrdə Borelin məsuliyyətdən yayınmasına və "sudan quru çıxmasına" şərait yaradan Luis Okampo olub və bu gün həmin "köməkliyin" əvəzini çıxır. Keçmiş prokuror Boreli öz çirkin siyasi oyunlarında alət kimi istifadə edərək, erməni lobbisinin maraqlarını ən yüksək kürsülərdən diktə edirir. Bu, beynəlxalq ədalət prinsiplərinin şəxsi maraqlara qurban verilməsi və Avropa strukturlarındakı sistemli çürümənin təzahürüdür.

Azərbaycan üçün bu proseslər yeni deyil. Rəsmi Bakı uzun illərdir bildirir ki, erməni lobbisinin təsiri altında fəaliyyət göstərən müəyyən dairələr siyasi sifarişlərə əsaslanan xətt yürüdürlər. Son videolar bunun isbatıdır. Uzun illərdir mövcudluğu ehtimal edilən, lakin birbaşa sübutlarla təsdiqlənməsi çətin olan bu korrupsiya zənciri artıq bütün çılpaqlığı ilə ifşa olunur. Əgər Avropa strukturlarında müəyyən qərar və təşəbbüslər lobbi şəbəkələrinin təsiri altında formalaşırsa, bu, təkcə Azərbaycan üçün yox, Avropanın özü üçün təhlükəli tendensiyadır. Bu mənzərə beynəlxalq sistemdə şəffaflıq və hesabatlılıq mexanizmlərinin nə qədər sual altında olduğunu, siyasi institutlara ictimai etimadın isə necə sarsıldığını göstərir.

Avropa Parlamenti və digər təsisatlar baş verənlər qarşısında susqun mövqe tutmamalıdır. Ciddi ittihamların araşdırılmaması və hesabatlılığın təmin edilməməsi Avropanın öz reputasiyasını tamamilə itirməsi ilə nəticələnə bilər. Okampo qalmaqalı sübut edir ki, qlobal siyasi institutlarda dərin islahatlara və lobbi şəbəkələrinin fəaliyyətini məhdudlaşdıran sərt qanunlara ciddi ehtiyac var. Əks halda beynəlxalq hüquq müstəqil iradənin deyil, ən çox maliyyə ayıran lobbi qruplarının əlində bir oyuncaq olaraq qalacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan QHT-ləri Ermənistana gedən Avropa liderlərinə açıq məktub yazıb

**Azərbaycan QHT-ləri Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenə, Avropa Şurasının prezidenti Antonio Koştaya, 8-ci Avropa Siyasi Birliyi Zirvə Toplantısında və Avropa İttifaqı-Ermənistan Zirvə Toplantısında iştirak edən dövlət və hökumət başçılarına açıq məktub ünvanlayıb.**

AZƏRTAC məktubun mətnini təqdim edir:

"Hörmətli xanım Ursula fon der Lyayen!

Hörmətli cənab Antonio Koşta!

8-ci Avropa Siyasi Birliyi Zirvə Toplantısında və Avropa İttifaqı-Ermənistan Zirvə Toplantısında iştirak edən hörmətli dövlət və hökumət başçıları!

Cənubi Qafqaz ötən yay Vaşinqton Zirvə Görüşündən sonra böyük bir transformasiya yaşayır. Azərbaycan və Ermənistan davamlı sülhə doğru irəliləyir.

Avropa Cənubi Qafqazla əlaqələrini dərinləşdirdikcə, biz, aşağıda imza atan Azərbaycan vətəndaş cəmiyyəti və insan hüquqlarının müdafiəsi təşkilatlarının nümayəndələri, sizləri Azərbaycanla Ermənistan arasında sülh və normallaşma prosesini dəstəkləməyə, eyni zamanda Azərbaycanın üzləşdiyi itkin düşmüş şəxslər və mina kimi humanitar problemlərə diqqət yetirməyə çağırırıq.

Hazırda I Qarabağ müharibəsindən bəri 71 nəfəri uşaq, 287 nəfəri qadın, 319 nəfəri ahıl olmaqla, təxminən 4000 Azərbaycan vətəndaşı itkin düşüb. Güclü dəlillər ortadadır ki, bu insanlar işgəncəyə məruz qalaraq öldürülüb, bu isə müharibə cinayətləridir.

30 ildən artıqdır ki, Ermənistan bu şəxslərin taleyi və kütləvi məzarlıqların yerləri barədə məlumat vermir. Bu 4 min nəfər itkin düşmüş şəxsin ailələrinin ağrı və əzabları beynəlxalq ictimaiyyət tərəfindən lazımi diqqətdən kənarda qalmış humanitar faciədir.

2020-ci ildə Azərbaycan ərazilərinin işğaldan azad edilməsindən bəri 32 kütləvi məzarlıq aşkar edilib. Bu kütləvi məzarlıqlardan aşkar edilmiş qalıqlar əsasında 91 nəfərin kimliyi müəyyən edilib və onlar dəfn olunub. Bu şəxslərin dəfnləri ailələri üçün çoxdan intizarında olduqları təskinlik yeri olub.

Bəzi erməni səhra komandirləri I Qarabağ müharibəsi zamanı öldürülən azərbaycanlıların kütləvi məzarlıqlarının yerləri barədə məlumatlara sahib olduqlarını bildiriblər. Sizi və bütün iştirakçıları çağırırıq ki, bu şəxsləri sorğu-sual etmək və kütləvi məzarlıqların yerləri barədə məlumatları Azərbaycana təqdim etmək üçün Ermənistana təzyiq edəsiniz.

Digər vacib humanitar problem Azərbaycanın azad edilmiş ərazilərinin minalarla çirklənməsidir. Ermənistanın tam və dəqiq mina xəritələrini təqdim etməkdən boyun qaçırması 2020-ci ildə II Qarabağ müharibəsinin bitməsindən bəri 400-dən çox insanın ölümünə və yaralanmasına səbəb olub. Bu "gizli müharibə" Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində yenidənqurma işlərini ləngidir və yüz minlərlə keçmiş məcburi köçkünün təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmasına mane olur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, sizi Ermənistanı itkin düşmüş azərbaycanlılar haqqında məlumatları açıqlamağa və Azərbaycanın azad olunmuş ərazilərinin dəqiq mina xəritələrini verməyə vadar etməyə dəvət edirik. Bu məsələlərin həlli etimad quruculuğu baxımından Ermənistan tərəfindən atıla biləcək praktiki addım ola bilər.

İnanmaq istərdik ki, Ermənistana qarşıdakı səfəriniz zamanı Azərbaycana ciddi təsir göstərən bu humanitar problemlərin həlli üçün Avropanın kollektiv qətiyyətini nümayiş etdirəcəksiniz.

*İmzalar:*

1. Ramil İskəndərli - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri
2. Könül Behbudova - "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri
3. Əmir Əliyev - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin sədri
4. Novella Cəfərova - "D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri
5. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri
6. Hafiz Səfixanov - "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri
7. Rey Qasımov - "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri
8. Əliməmməd Nuriyev - Konstitusiya Araşdırmalar Fondunun rəhbəri
9. Səidə Qocamanlı - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri
10. İradə Rzazadə - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri
11. Oğuz Məmmədov - "Zəngi - Tarixi İrsin Öyrənilməsi" İctimai Birliyinin sədri
12. Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri
13. Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri
14. Xatirə Vəliyeva - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü
15. Elşad Eyvazov - "Tərəfsiz Jurnalistlər" İctimai Birliyinin sədri
16. Sevinc Əlizadə - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
17. Umud Rəhimoğlu - Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri
18. Zaur Məmmədov - "Bakı Politoloqlar Klubu" İctimai Birliyinin sədri
19. Ayaz Mirzəyev - "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri
20. Hacı Abdulla - "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri
21. Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri
22. Lalə Sərdarlı - "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyinin sədri
23. Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri
24. Tünzalə Abdullalimova - "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
25. Fəridə Mirişova - "İz" Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyinin sədri
26. Ceyran Həsənova - "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri
27. Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri
28. Kəramət İsmayılov -"İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri
29. Fikrət Yusifov - "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri
30. Aqil Camal - "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri
31. Şəlalə Həsənova - "İctimaiyyətlə əlaqələrin inkişafına dəstək" İctimai Birliyinin sədri
32. Varis Yolçiyev - Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru
33. Xətai Ələsgərov - "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri
34. Dilqəm Əhməd - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri
35. Cəsarət Hüseynzadə - "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri".

# Azərbaycan Milli QHT Forumu fəaliyyətinə və planlarına dair ictimai hesabatla çıxış edib

**2024-cü ilin mayında əvvəlki tərkibi buraxılmış, köhnə strukturu ləğv edilərək tam yenilənmiş Azərbaycan Milli QHT Forumu (AMQF) ötən 2 illik fəaliyyətinə və qarşıdakı planlarına dair ictimai hesabat xarakterli mətbuat konfransı keçirib.**



AZƏRTAC xəbər verir ki, AMQF İdarə Heyətinin sədri Ramil İskəndərlinin sözlərinə görə, bu ikiillik qısa müddətdə kollektiv səylər nəticəsində Azərbaycan QHT-lərinin çətir təşkilatı olan forum beynəlxalq səviyyədə qəbul edilən brendə çevrilib: "Bu gün AMQF Ekvadordan İndoneziyaya, Meksikadan Okeaniyaya qədər geniş areallı əhatə edən Qlobal Cənub məkanında, o cümlədən böyük türk coğrafiyasında fəaliyyət göstərir, yüzlərlə xarici QHT ilə tərəfdaşlıq münasibətlərinə malik, qlobal və regional təşəbbüsləri ilə tanınan nüfuzlu milli təşkilatdır. Etiraf etməliyik ki, bir neçə il əvvələ qədər forumun adı heç Azərbaycanın özündə yetərincə tanınmırdı. Biz bu gün tam fərqli mənzərədəyik. Bu yüksəliş böyük zəhmət və ardıcıl fəaliyyətin nəticəsidir. Azərbaycan QHT-ləri bu gün dünya ilə danışır".

R.İskəndərli 2026-cı il mayın 14-də Bakıda 130-a yaxın ölkədən QHT-lərin iştirakı ilə Qlobal Cənub QHT Platformasının Baş Assambleyasının keçiriləcəyini bəyan edib: "Azərbaycan Milli QHT Forumu "Bakı Şəhərsalma Həftəsi"ndə yer alan bu qlobal tədbirin əsas təşkilatçılarından biridir. Baş Assambleyada Platformanın baş katibi, onun Asiya, Afrika, Latın Amerikası, Avstraliya və Okeaniya üzrə 4 müavini seçiləcək. Hazırda bu platformaya Azərbaycan uğurla rəhbərlik edir, təsisatın daimi qərargahı da Bakıda yerləşir".

İdarə Heyətinin sədri qeyd edib ki, bir müddət əvvəl BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisi (UNOSSC) Qlobal Cənub QHT Platforması (GSNP) barədə məlumatları yeni əməkdaşlıq modelinə nümunə kimi rəsmi saytında yerləşdirib. UNOSSC tərəfindən GSNP son illərin ən inklüziv vətəndaş cəmiyyəti səfərbərliklərindən biri kimi qiymətləndirilib. BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin Azərbaycan QHT-lərinin qlobal təşəbbüsünü dəyərləndirərək öz profili üzərindən yayması ilk dəfə baş verib. Bu qlobal diqqətin təzahürü kimi UNOSSC direktorunun GSNP-nin Baş Assambleyası iştirakçılarına xitab edəcəyi gözlənilir.

Ramil İskəndərli onu da deyib ki, müxtəlif ölkələrdəki QHT-lərdən daxil olmuş təşəbbüslər dəyərləndirilərək Qlobal Cənubun himni də yazılıb. Bu himn ilk dəfə Bakıda GSNP-nin Baş Assambleyasında səsləndiriləcək.

## Azərbaycan Qoşulmama Hərəkatının QHT şəbəkəsini inşa edir

AMQF İdarə Heyətinin üzvü, deputat Pərvanə Vəliyeva bildirib ki, Qlobal Cənub QHT Platformasının (GSNP) Qoşulmama Hərəkatının QHT şəbəkəsi kimi tanınması üçün böyük şansı və perspektivi var: "Qoşulmama Hərəkatında təmsil olunan 120 ölkədən 116-nın vətəndaş cəmiyyəti nümayəndələri bu tərkibdə yer alıblar. Bu, Qlobal Cənub miqyasında rast gəlinməyən məxsusi hadisədir. Qoşulmama Hərəkatının gənclər və parlament şəbəkələri kimi QHT şəbəkəsi də ola bilər. Qlobal Cənub QHT Platforması buna layiqdir. Bu platformanın yaradılış ruhu İndoneziyada qəbul edilmiş tarixi "Bandunq prinsipləri" ilə tam səsləşir. Bu prinsiplər dövlətlərin daxili işlərinə qarışmanı rədd edir, dinc, ədalətli dünya nizamının yaradılmasını, ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəslənilməsini, xalqların bərabərliyinin təmin olunmasını təşviq edir, qarşılıqlı maraq və əməkdaşlığın, iqtisadi rifahın gücləndirilməsi üçün səfərbərliyə çağırır".

P.Vəliyeva vurğulayıb ki, Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə əməl edən, xalqların siyasi sistemlərinə, mədəni, etnik, dini fərqliliklərinə hörmət edən, dinlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu daim güclü təşviq edən ölkə kimi tanınır. Onun sözlərinə görə, GSNP-nin ötən il məhz Bakıda təsis olunması Qoşulmama Hərəkatına və COP29-a sədrlik dövrlərində Azərbaycanın fəaliyyətinə verilən yüksək dəyər kimi də qiymətlidir.

## Türk dünyası QHT-ləri koordinasiyalı fəaliyyətə başlayır

AMQF İdarə Heyətinin üzvü, deputat Azər Allahverənov ötən il təsis edilmiş Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT Platformasının Baş Katibliyinin Azərbaycan Milli QHT Forumunun təmsilçisinə həvalə edilməsini türk dünyasında bu təşkilata olan yüksək etimadın təzahürü kimi yanaşıb. A.Allahverənov 2026-cı il mayın 16-da - "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində Azərbaycanın QHT Agentliyinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin II Həmrəylik Forumunun keçiriləcəyini, bu tədbirin əsas tərəfdaşının isə TDT-yə üzv ölkələrin QHT Platformasının olacağını bildirib: "8 ölkədən vətəndaş cəmiyyəti təmsilçiləri ilə türk dünyasının məsələlərinə dair geniş müzakirələrimiz olacaq. Daim sülh, təhlükəsizlik, sabitlik, tərəqqi ideyalarına sadiq olan türk dövlətlərini ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlər möhkəm bir ailə kimi birləşdirir. Bu regional tədbir çərçivəsində Azərbaycanla Şimali Kipr, Qırğızıstan və Türkmənistan vətəndaş cəmiyyəti təmsilçiləri arasında ikitərəfli QHT forumları da baş tutacaq. Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti platformanın əsas məqsədidir. Biz türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə güclənən mövqeyinə dəstək olaraq əməkdaşlıq imkanlarımızı genişləndirəcəyik. Biz son yarım ildə artıq ikinci dəfə Azərbaycanda Həmrəylik Forumuna toplaşırıq. Çox şadıq ki, Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyi kimi qəbul olunur".

Azər Allahverənov onu da bildirib ki, AMQF üzvü olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyi bu Həmrəylik Forumuna hazırlıq çərçivəsində Türk Dövlətləri Təşkilatının xəritəsini hazırlayıb. Forumda bu xəritə ilk dəfə nümayiş olunacaq".

## AMQF-nin təşəbbüsü ilə orta məktəblərdə inşa müsabiqəsi keçiriləcək

AMQF İdarə Heyətinin üzvü Zaur İbrahimli Azərbaycan Milli Forumunun yerli QHT-lərin institusional inkişafında mühüm mərkəzə çevrildiyini dilə gətirib: "Son 1 ildə yalnız AMQF-nin ofisində QHT-lərlə bağlı 128 müxtəlif tədbir keçirilib, bu tədbirlərdə ümumilikdə 3000 nəfərdən çox şəxs iştirak edib. Tədbir məkanları üzv QHT-lər üçün tamamilə ödənişsiz verilib. AMQF-nin "QHT Evi" olması ilə qürur duyuruq. Burada keçirilmiş ictimai müzakirələr və dinləmələr faydalı təşəbbüslərlə yadda qalıb". Z.İbrahimli qeyd edib ki, Prezident İlham Əliyev 2025-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında ana dilinin saflığının qorunması məsələsini strateji vəzifə olaraq müəyyənləşdirib, "hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır" fikri ilə cəmiyyəti bu mövzuda ictimai səfərbərliyə çağırıb: "Azərbaycan Milli QHT Forumu ana dilinin saflığının qorunması mövzusunda QHT-lərlə silsilə ictimai müzakirələr təşkil edir. Bu müzakirələrin nəticəsi olaraq, bu günlərdə Elm və Təhsil Nazirliyinə 2026-2027-ci tədris ilində şagirdlər arasında "Mənim adımın mənası nədir?" mövzusunda ümumrespublika inşa müsabiqəsinin keçirilməsi təşəbbüsü ilə müraciət etmişik".

Zaur İbrahimli xüsusi vurğulayıb ki, uşağa verilən ad yalnız fərdi zövq məsələsi deyil, eyni zamanda kollektiv yaddaşın, mədəni kodların və milli kimliyin mühüm daşıyıcısıdır: "Bu mənada gələcək valideynlər - məktəblilər arasında belə bir müsabiqənin təşkili uşaqların öz adlarının mənasını araşdırmasına, bu prosesə ailə üzvlərini cəlb etməsinə və ümumilikdə cəmiyyətin diqqətinin milli ad ənənələrinə yönəldilməsinə böyük töhfə verə bilər. Az əvvəl aldığımız sevindirici xəbəri media ilə bölüşmək istəyirəm ki, Elm və Təhsil Nazirliyi bu ideyamızı müsbət dəyərləndirib. Nazirlikdən rəsmi cavab almışıq ki, AMQF-nin təşəbbüsü əsasında bu ilin payızında məktəblilər arasında bu mövzuda inşa müsabiqəsinin keçirilməsinə başlanacaq. Fürsətdən istifadə edərək, sosial sifariş olaraq vətəndaş cəmiyyətinin bu nəcib təşəbbüsünü dəstəklədiyi üçün Elm və Təhsil Nazirliyinin rəhbərliyinə təşəkkür edirik. Hesab edirik ki, ictimai müzakirələrin məhz bu cür ölçüləbilən nəticələri olmalıdır".

## QHT-lər WUF13-ə ciddi hazırlaşıb

AMQF İdarə Heyətinin üzvü Xatirə Vəliyeva bildirib ki, QHT-lərin fəaliyyət miqyası və əldə etdiyi nəticələr genişləndikcə, bu sektora olan ictimai etimadın da paralel şəkildə artdığı müşahidə olunur. Bu etimadın mühüm göstəricilərindən biri Prezident İlham Əliyevin Azərbaycan QHT-lərinin təşəbbüsü ilə keçirilən forumlar, tədbirlərə müraciətlər ünvanlaması, çıxışlarında QHT-lərin fəaliyyətini qeyd etməsidir: "Qazanılan uğurlar QHT sektorunun nüfuzunu gücləndirir, əvvəlki mərhələlərdə mövcud olmuş neqativ təcrübələrin təsirini zəiflədir və QHT-lərə olan inamı möhkəmləndirir. Biz Azərbaycan Prezidenti İlham Əliyevə QHT-lərin inkişafı üçün yaratdığı münbit şəraitə, davamlı dəstəyinə, Azərbaycan Milli QHT Forumuna QHT Agentliyinin Müşahidə Şurasında təmsil olunması barədə qərarına görə minnətdarıq".

# "Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi" mövzusunda beynəlxalq Gənclər Forumuna yekun vurulub

**Bakıda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi" mövzusunda beynəlxalq Gənclər Forumuna yekun vurulub.**

AZƏRTAC xəbər verir ki, forumda ilk dəfə olaraq indiki və keçmiş müstəmləkələri təmsil edən gənc diplomatlar, tədqiqatçılar, beynəlxalq hüquq sahəsində ixtisaslaşmış şəxslər, səhiyyə sahəsi üzrə mütəxəssislər, müstəqillik tərəfdarı olan siyasi partiyaların və təşkilatların nümayəndələri, gənclər təşkilatlarının rəhbərləri və universitet tələbələri iştirak ediblər. Ümumilikdə 17 ölkədən nümayəndələr öz təcrübələrini bölüşüblər. Eyni zamanda ölkəmizin ali məktəblərində təhsil alan əcnəbi tələbə və tədqiqatçılar foruma qatılıb.

Forumun ikinci günü açılış mərasimi gənc nümayəndələrin fləş-mob çıxışı ilə başlayıb.

Açılış mərasimində çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Qrup 2023-cü ilin iyul ayında müstəmləkəçiliyin aradan qaldırılmasına həsr olunmuş beynəlxalq konfrans çərçivəsində təsis edilib və fəaliyyətə başladığı dövrdən etibarən bu istiqamətdə ardıcıl və sistemli iş aparır.

O qeyd edib ki, 2023-cü ildən bu günədək qrup tərəfindən kolonial və neokolonial siyasətlərin nəticələri, dekolonizasiya məsələləri, insan hüquqlarının, yerli xalqların və etnik azlıqların hüquqlarının qorunması kimi mövzulara həsr olunmuş 35-dən çox beynəlxalq tədbir uğurla təşkil olunub.

A.Abbasovun sözlərinə görə, 2024-cü ildən etibarən Bakı Təşəbbüs Qrupu fəaliyyətini beyin mərkəzi kimi davam etdirir. Bu dövrdə üç kitab nəşr olunub, 40-dan çox analitik hesabat hazırlanaraq ictimaiyyətə təqdim edilib. Eyni zamanda beynəlxalq təşkilatlara və aidiyyəti qurumlara alternativ hesabatlar təqdim olunub. Qrupun fəaliyyəti çərçivəsində hazırda müstəmləkəçilikdən əziyyət çəkən xarici ərazilərlə əməkdaşlıq əlaqələri qurulub. Bununla yanaşı, neokolonial siyasətlərdən zərər görmüş 15-dən çox ölkə ilə əməkdaşlıq genişləndirilib.

Sonra BMT-nin Gənclər Ofisinin nümayəndəsi Adelin Pierrenin qurumun dəstək mesajını əks etdirən videomüraciəti dinlənilib.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasovun moderatorluğu ilə keçən müzakirələrdə çıxış edən Qabondan olan siyasi elmlər tədqiqatçısı Angelika İvala bildirib ki, forum iştirakçılar arasında təcrübə mübadiləsi aparmaq, qarşılıqlı öyrənmə imkanları yaratmaq və konkret təşəbbüslərin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Kanadanın "Panth Punjab" layihəsinin sədri Akashdeep Singh Chahai qeyd edib ki, bu platformanın əsas əhəmiyyəti gənclərin yalnız gələcəyin liderləri deyil, eyni zamanda postkolonial reallıqların formalaşdırılmasında fəal iştirakçılar kimi çıxış etməsindədir. Gənclər artıq müxtəlif regionlarda öz müqəddəratını təyinetmə, ədalət və dekolonizasiya ilə bağlı yeni yanaşmalar irəli sürürlər.

Afrika üzrə İqlim Məsləhətləri Bürosunun Keniyadan olan redaktoru Brian Ngigi isə müstəmləkəçiliyin formal olaraq sona çatmasına baxmayaraq, onun struktur nəticələrinin bu gün də müxtəlif formalarda özünü göstərdiyini diqqətə çatdırıb.




Reunyonda "Ka-Ubuntu" azadlıq hərəkatının həmtəsisçisi və sədri Romain Katambara ölkəsinin hələ də Fransanın müstəmləkəsi altında qaldığını, əsas məqsədlərinin müstəqillik əldə etmək olduğunu vurğulayıb: "Bu, Reunyon xalqı üçün ləyaqət məsələsidir. Mənim ölkəm Reunyon hələ də Fransa tərəfindən siyasi, iqtisadi və mədəni baxımdan idarə olunur və asılı vəziyyətdədir. Məhz buna görə biz "Ka-Ubuntu" hərəkatını yaratdıq. Reunyondan və diaspordan olan gənc qardaş və bacılarımızla birlikdə ölkəmizin müstəqilliyi uğrunda mübarizəyə başladıq. Çünki bizim üçün müstəmləkəçilik xalqımızı içdən yeyən bir xərçəngdir və bunun yeganə müalicəsi müstəqillikdir".

"Global Family Media" şirkətinin əməliyyatlar üzrə direktoru, "Rwanda Gender Media Council" təşkilatının İdarə Heyətinin üzvü, Ruandadan olan Umuhoza Natete Veritenin sözlərinə görə, postkolonial cəmiyyətlərin gələcəyi yalnız keçmişin dəyərləndirilməsindən deyil, həm də bu gələcəyi formalaşdıracaq gənclərin gücləndirilməsindən asılıdır.

Gəncləri bu günün liderləri hesab etdiyini qeyd edən Çadın Xarici İşlər Nazirliyinin nümayəndəsi Abderahman Moussa bildirib ki, postkolonial kontekstdə gənclərin rolunu yenidən düşünmək onların özünə inamını bərpa etməkdən başlamalıdır: "Biz itirilmiş nəsil deyilik, biz formalaşan nəsilik. Qarşımızda çoxsaylı çağırışlar var: iqlim dəyişikliyi, bərabərsizliklər, münaqişələr, rəqəmsal transformasiya. Lakin bu çağırışlar, eyni zamanda cəmiyyətlərimizi yenidən formalaşdırmaq üçün imkan da təqdim edir. Əgər biz həqiqətən postkolonial, ədalətli, suveren və dayanıqlı bir gələcək istəyiriksə, gənclərə inanmalı, onlara investisiya qoymalı və onlarla birlikdə irəliləməliyik. Arzuladığımız postkolonial gələcək gənclərsiz qurulmayacaq".

"Paris Nanterre" Universitetində siyasi elmlər üzrə təhsil alan əlcəzairli tələbə Mellina Tenfiçenin sözlərinə görə, kolonizasiya, sadəcə, ərazilərin işğalı deyil, o, daha dərin və daha travmatik bir prosesdir. Bu, torpaqların, sərvətlərin, həm maddi, həm də insan resurslarının mənimsənilməsi deməkdir. Eyni zamanda bir xalqın mədəniyyətinin, tarixinin və ləyaqətinin əlindən alınmasıdır. Bu, geri qaytarılması vacib olan torpaqdan daha çətin olan bir itki yaradır.

Kanada Siqh Federasiyasının hüquq müşaviri Pahal Sarvan Sinq siqhlər üçün siyasi təmsilçilik, muxtariyyət, öz müqəddəratını təyinetmə və Xalistan məsələlərinin Pəncabda hələ də aktual olduğunu diqqətə çatdırıb. Bildirilib ki, bunlar abstrakt narahatlıqlar deyil. Onlar tarixə, siqh kimliyinə və yaşanmış təcrübəyə əsaslanır. Siqh xalqına qarşı soyqırımı ya məhkəməsiz qətllər formasında, ya da transmillиləşmiş repressiya şəklində davam edir.

Misirdən gələn iştirakçı İsmael Ehab Mohamed Jaberin sözlərinə görə, bu gün güc yalnız siyasi və ya iqtisadi deyil, həm də media, informasiya və narrativ üzərində qurulub: "Bu sahədə gənclər, sadəcə, iştirakçı deyillər. Onlar qlobal müzakirələrin formalaşmasında əsas aktorlara çevrilirlər. Məhz buna görə Bakı Təşəbbüs Qrupu kimi təşkilatlar çox önəmlidir. Onlar regionlar arasında ideyaları birləşdirir və dialoqu real təsirə çevirir. Həmçinin qeyd etmək istərdim ki, gənclər media və platformalardan istifadə edərək öz ideyalarını yayır, özlərini inkişaf etdirirlər. Əsas sual gələcəyin necə olacağı deyil, gənclərin onun formalaşmasında hansı rolu oynayacağıdır".

Daha sonra ADA Universitetinin professoru Murat Özkalelinin moderatorluğu ilə interaktiv sessiya keçirilib. Sessiya zamanı süni intellektin inkişafının beynəlxalq münasibətlər və qlobal təhlükəsizlik sahələrinə təsiri, BMT-nin dayanıqlı inkişaf məqsədləri barədə müzakirələr aparılıb.

Sonra ötən gün keçirilən debat müsabiqəsinin qaliblərinə sertifikatların təqdim edilməsi mərasimi olub.

Forumun sonunda Qlobal Cənub Gənclər Platformasının yaradılması haqqında qərar qəbul edilib.






**2026 Şəhərsalma və Memarlıq İli**






# Azərbaycanın "Elm Sarayı"

## Bugünkü "Akademiya şəhərciyi"ni memar Mikayıl Hüseynov dövrün "qənaət" tələblərinə boyun əyməyərək ərsəyə gətirmişdir

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) şəhərciyi və əsas binası Bakının memarlıq simasında xüsusi yer tutur. Bu kompleksin inşası həm elmi, həm də memarlıq baxımından bir neçə mühüm mərhələdən keçmişdir. Binanın və şəhərciyin memarı akademik Mikayıl Hüseynovdur. Akademiyanın özü 1945-ci ildə yaradılsa da, kompleksin tikintisi sonrakı dövrlərə təsadüf edir və akademik qurumların vahid ərazidə cəmləşdirilməsini nəzərdə tuturdu.**



Şəhərciyin əsas binası 1960-cı illərdə tamamlanıb. Bina Hüseyn Cavid prospektinin simasını müəyyən edən əsas tikilidir. Bu tikilinin memarlığında klassik Şərq və Azərbaycan milli memarlıq elementləri ilə Avropa klassisizmi və o dövrün modern memarlıq prinsipləri sintez olunub. Xüsusilə portalın (giriş hissəsinin) tərtibatı, stalaktitli (muqarnas) künclər və sütunların işlənməsi milli memarlıq ənənələrinin yüksək peşəkarlıqla tətbiqidir.

Zamanla şəhərcik ərazisində elmi-tədqiqat institutları üçün yeni korpuslar da inşa edilmişdir. Hazırda bu kompleks Azərbaycan elminin coğrafi mərkəzi sayılır. Çox maraqlıdır ki, sonradan - 1985-ci ildə açılan "Elmlər Akademiyası" metrostansiyası da məhz bu elmi mərkəzin ərazisində və onun memarlıq ansamblına uyğun şəkildə inşa edilib.

Onu da qeyd edək ki, çox vaxt AMEA-nın Rəyasət Heyətinin yerləşdiyi tarixi "İsmailiyyə" binası (İstiqlaliyyət küçəsindəki Venesiya qotikası üslublu bina) ilə "Elmlər şəhərciyi"ndəki əsas bina qarışdırılır. "İsmailiyyə" 1913-cü ildə Musa Nağıyev tərəfindən tikdirilib, Akademiya şəhərciyi isə sovet dövründə Bakının yeni elmi mərkəzi kimi yaradılıb.

AMEA-nın əsas binasının xarici görünüşü Bakının memarlıq simasında milli klassisizm üslubunun zirvəsi hesab olunur. Memar Mikayıl Hüseynov bu binanı layihələndirərkən həm qədim Şərq saraylarının əzəmətini, həm də Avropanın monumental memarlıq prinsiplərini birləşdirmişdir. Mütəxəssislər yazırlar ki, binanın xarici görünüşünü səciyyələndirən əsas elementlər onun monumental portikləri və sütunlarıdır. Binanın ən diqqətçəkən hissəsi onun mərkəzi girişidir. Girişdə yerləşən nəhəng sütunlar binaya rəsmiyyət və əzəmət bəxş edir. Bu sütunlar tikilinin ümumi hündürlüyü boyu uzanaraq dam hissəni saxlayır.

Sütunların yuxarı hissəsi mürəkkəb oyma naxışlarla bəzədilib. Burada klassik üslubla Azərbaycanın milli nəbati (bitki) motivlərinin sintezi görünür. Binanın fasadında Mikayıl Hüseynovun ən çox sevdiyi element - stalaktitlərdən (pilləli və ya asma dekorativ elementlər) geniş istifadə olunub.

Giriş portalının daxili tavanı və pəncərələrin yuxarı hissəsi mürəkkəb həndəsi pillələrlə işlənib. Bu element Orta əsr Azərbaycan memarlığına (məsələn, Şirvanşahlar Sarayına) birbaşa istinaddır.

Bina Bakı ətrafından çıxan açıq sarımtıl-qızılı rəngli "Gülbaxt" və travertin daşları ilə üzlənib. Bu material binanın günəşli günlərdə parlaq, buludlu günlərdə isə isti və təmkinli görünməsini təmin edir. Fasadın müxtəlif yerlərində, xüsusən də pəncərə kənarlarında və karnizlərdə daş üzərində incə oyma naxışlar (həndəsi zəncirlər) mövcuddur. Pəncərələrin yerləşmə qaydası və onların ətrafındakı haşiyələr binaya ritmik bir görünüş verir. Çərçivələrin dizaynı vizual olaraq milli şəbəkə sənətini xatırladır. Bina mərkəzi hissədən və iki tərəfə uzanan yan korpuslardan ibarətdir. Bu "P" hərfi formalı planlaşdırma binanı daha böyük və qüdrətli göstərir. Buna yan qanadlar da deyirlər. Binanın dam xətti boyu uzanan karnizlər (haşiyələr) çox mürəkkəb naxışlarla bəzədilib. Bu, binanın göy üzü ilə təmasını daha zərif edir. Həmçinin binanın zirvəsindəki çıxıntılar və dekorativ elementlər onun saray tipli tikili olduğunu vurğulayır. Nəticə olaraq AMEA-nın binası öz xarici görünüşü ilə həm müasir elmi, həm də Azərbaycanın minillik memarlıq tarixini özündə daşıyan bir "Elm Sarayı" təsiri bağışlayır.






AMEA-nın əsas binasını əhatə edən park kompleksinə gəldikdə isə bura, sadəcə, bir yaşıllıq sahəsi deyil, həm də binanın memarlıq ansamblını tamamlayan və onu şəhərin digər hissələrindən ayıran strateji bir ərazidir.

Parkın planlaşdırılması memar Mikayıl Hüseynovun binanın özü üçün seçdiyi klassik simmetriya prinsipinə əsaslanır. Mərkəzi Xiyaban: binanın əsas girişindən (portalından) Hüseyn Cavid prospektinə doğru uzanan geniş mərkəzi yol parkın əsas oxudur. Bu yol binanın monumental əzəmətini uzaqdan görməyə imkan verir. Yaşıllıq zolaqları və piyada yolları dəqiq həndəsi formalarda bölünüb ki, bu da "akademik intizam" ruhunu əks etdirir.

"Alimlər Parkı" deyilən şəhərcik daxilindəki park həm də bir yaddaş məkanıdır. Akademiyanın düz qarşısında, parkın ən görkəmli yerində böyük dramaturq Hüseyn Cavidin abidəsi və onun ətrafında geniş meydan yerləşir. Bu, parkı şəhər sakinləri üçün də sevilən mədəni məkana çevirir. Şəhərciyin daxili həyətlərində və institutların qarşısında Azərbaycanın görkəmli alimlərinin (məsələn, Yusif Məmmədəliyev və s.) büstləri yerləşdirilib. Bu, ərazidə xüsusi bir elm ocağı ovqatı yaradır. Fəvvarələr isə mikroiqlimi sərinləşdirmək və estetik görünüş yaratmaq üçün xüsusi gözəlliklə əhatə olunmuşdur.

Bu kompleks haqqında daha çox tarixi hadisələr maraqlıdır. Şəhərciyin inşası zamanı SSRİ-də Nikita Xruşşovun rəhbərliyi ilə memarlıqda "israfçılığ"a qarşı mübarizə başlamışdı. Mikayıl Hüseynov buna qarşı ciddi müqavimət göstərirdi. Layihədə nəzərdə tutulan bəzi möhtəşəm qüllələr və əlavə dekorativ elementlər "artıq" sayılaraq ixtisar olunmalı idi. Lakin M.Hüseynov binanın daxili ruhunu və milli ornamentlərini qorumaq üçün böyük diplomatik və peşəkar cəsarət nümayiş etdirdi. Bu, əslində, Azərbaycan memarlığının milli ruhunu qoruyub saxlamaq savaşı idi.

1955-ci ildə SSRİ rəhbəri Nikita Xruşşovun "İnşaatda artıqlıqların ləğv edilməsi haqqında" məşhur qərarı çıxdı. Bu qərar memarlardan bütün sütunları, bəzəkləri, günbəzləri və milli naxışları layihələrdən çıxarmağı tələb edirdi. Akademiya binası isə o vaxt layihə mərhələsində idi və Mikayıl Hüseynov onu çox möhtəşəm, "şərq intibahı" üslubunda planlaşdırmışdı.

Moskvadan gələn təzyiqlər nəticəsində binanın layihəsindəki hündür dekorativ qüllələr, bəzi portiklər və bahalı üzlük materialları ixtisar edildi. Memar binanın ümumi klassik formasını və daxili naxışlarını qorumaq üçün layihəni dəfələrlə dəyişməli oldu, lakin onun ruhuna toxunulmasına imkan vermədi. O dövrdə binaların üzərində milli elementlərin (məsələn, buta, islimi, şəbəkə) istifadəsi "millətçilik" kimi qələmə verilə bilərdi. Mikayıl Hüseynov böyük ustalıqla bu elementləri "həndəsi formalar" adı altında binanın fasadına və daxilinə yerləşdirdi. O, stalaktitləri (muqarnasları) elə bir mühəndislik dəqiqliyi ilə işlədi ki, rəsmi qurumlar buna "faydalı konstruktiv element" kimi baxmağa məcbur oldular. Burada "İsmailiyyə" ilə müqayisə təhlükəsi də var idi. Mikayıl Hüseynov istəyirdi ki, yeni akademiya binası qədim memarlıq ənənələrini davam etdirsin. Lakin sovet ideologiyası keçmişlə bu qədər sıx bağlılığı bəyənmirdi. Memarın mübarizəsi həm də onda idi ki, o, binanı elə layihələndirdi ki, bura həm sovet akademizmini təmsil edirdi, həm də baxan hər kəs burada Azərbaycanın qədim saray memarlığını görürdü.

M.Hüseynov təkcə bina deyil, bütöv bir "elm şəhərciyi" ansamblı yaratmaq arzusundaydı. Həmin dövrdə vəsait çatışmazlığı səbəbindən layihəni sadələşdirmək və institutları adi "qutu" formalı binalarda yerləşdirmək təklif olunurdu. Memar isə hər bir institutun binasının (Fizika, Kimya və s.) vahid üslubda olmasını tələb edərək Bakının bu hissəsinin özünəməxsus memarlıq simasını xilas etdi. Bu mübarizənin nəticəsi bu gün göz qabağındadır. Əgər Mikayıl Hüseynov ovaxtkı siyasi təzyiqlərə tam boyun əysəydi, indi biz "Elmlər Akademiyası" dediyimiz ərazidə memarlığın şah əsərini yox, sadə və boz sovet binalarını görərdik.

Memarın bu fədakarlığı, öz ideyası uğrunda dövlət sistemi ilə mübarizəsi sayəsində bina bu gün Azərbaycan milli memarlığında əzəməti və görünüşü ilə hamını heyran edir.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Şəhərlərin gələcəyi iki həftə sonra Bakıda yazılacaq

**Hazırda qlobal miqyaslı tədbirlərin ölkələrin beynəlxalq nüfuzunun formalaşmasında mühüm rolu var. Bu baxımdan dünya şəhərlərinin gələcəyinin müzakirə olunduğu ən nüfuzlu platformalardan biri olan Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Azərbaycanda keçirilməsi sıradan bir tədbir deyil. Bu mühüm hadisə ölkəmiz üçün yeni imkanlar qapısı açır, Azərbaycanın qlobal səviyyədə mövqeyini daha çox möhkəmləndirir.**

Öncə onu deyək ki, 2023-cü il dekabrın 22-də "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş" imzalanıb, 2024-cü ilin martında isə Prezident İlham Əliyev tərəfindən təsdiqlənib. 2025-ci il aprelin 25-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev WUF13-ün milli koordinatoru təyin edilib. Həmin il iyunun 5-də qlobal tədbirin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Forumun mövzusu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz, dayanıqlı şəhərlər və yaşayış məskənləri"dir. Yüksəksəviyyəli dövlət rəsmiləri, beynəlxalq təşkilatların üzvləri, memarlıq və şəhərsalma üzrə ekspertlər forumun işində iştirak edəcəklər.

WORLD URBAN FORUM
THIRTEENTH SESSION

Məlumdur ki, son illər Azərbaycan bir sıra mühüm beynəlxalq tədbirlərə evsahibliyi edərək qlobal gündəlikdə fəal iştirakını nümayiş etdirir. Bu baxımdan 2024-cü ilin noyabrında COP29-un Bakıda keçirilməsi xüsusi əhəmiyyət daşıyırdı. Həmin mötəbər toplantı iqlim dəyişmələrinə qarşı ortaq həll yollarının müzakirəsi üçün geniş imkan yaratdı. COP29 Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, ölkənin ekoloji məsələlərə həssas yanaşdığını və dayanıqlı inkişaf istiqamətində ciddi addımlar atdığını göstərdi. Qlobal tədbirdə qəbul olunan qərarlar və aparılan müzakirələr bütövlükdə dünya üçün əhəmiyyətli oldu.

Məhz belə bir uğurlu təcrübənin davamı kimi WUF13-ün də Bakıda keçirilməsi təbii ki, qanunauyğunluqdur. Bu forum COP29-dan sonra ən böyük və strateji əhəmiyyətli qlobal platformalardan biri hesab olunur. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın şəhərsalma və azad edilmiş ərazilərin bərpası istiqamətində həyata keçirdiyi genişmiqyaslı işlərin beynəlxalq miqyasda tanınmasına yeni imkanlar açır. Bu, ölkəmizin qlobal səviyyədə də urban inkişaf proseslərinə töhfə verən iştirakçıya çevrildiyini göstərir.

Beynəlxalq tədbir Azərbaycan üçün yalnız əldə olunmuş uğurları nümayiş etdirmək fürsəti deyil. Bu, eləcə də iqlim dəyişmələri, şəhər mühitinin effektiv idarə olunması və dayanıqlı inkişaf məqsədləri istiqamətində yeni tərəfdaşlıqların qurulması, beynəlxalq təcrübənin mənimsənilməsi və gələcəyə yönəlik strateji addımların müəyyənləşdirilməsi baxımından mühüm platformadır.

Ekspert və mütəxəssislər belə qənaətə gəliblər ki, forum iqlimə davamlı və innovativ şəhər modellərinin ölkəmizdə tətbiqi üçün real imkanlar yaradacaq. Üstəlik, Azərbaycanın şəhərsalma siyasətində böyük fayda sərgiləyəcək, "ağıllı şəhər" modelinin tətbiqi kimi istiqamətlərdə Bakıya ciddi metodoloji töhfə verəcək. Forum Azərbaycanın Vətən müharibəsindən sonrakı dövrdə rekonstruksiya modelini qlobal səviyyədə təqdim etməsi üçün unikal platformadır. Bu tədbirdən sonra Bakı regional urban innovasiya mərkəzinə çevrilə bilər.

Amma bu, o demək deyil ki, forum yalnız uğurların nümayişi ilə məhdudlaşacaq. Tədbir şəhərsalma sahəsində mövcud problemlərin müzakirəsi və onların həlli yollarının müəyyənləşdirilməsi üçün mühüm zəmin yaradır. Əslində, "Müasir dövrdə şəhərsalma hansı problemlərlə üz-üzədir və bu problemlərin həlli yolları nədən ibarətdir?" sualı bu cür tədbirlərin əsas müzakirə mövzusunu təşkil edir. Belə beynəlxalq sessiyaların məqsədi də məhz bu kimi suallara cavab tapmaq, mövcud problemlərə qarşı effektiv yanaşmalar formalaşdırmaqdır.

Şəhərsalma memarı, professor Cahid Həsənovun fikrincə, əvvəlki dövrlərdə formalaşmış şəhərsalma modelləri artıq müasir tələblərə cavab vermir: "Bu gün dünya şəhərləri iqlim dəyişmələri, ətraf mühitin qorunması və insan komfortu kimi prioritetlərlə üz-üzədir. Sıx tikinti, təbii havalandırmanın zəif olması kimi problemlər yeni urban yanaşmaların zəruriliyini ortaya qoyur. Artıq şəhərlərin planlaşdırılmasında təbii işıqlanma, havalandırma, yaşıllıq zolaqlarının genişləndirilməsi və ekoloji balans əsas prioritetlərdəndir. Bu həm də "ağıllı şəhər" konsepsiyasının əsasını təşkil edir".

Belə peşəkar yanaşma da göstərir ki, şəhərsalma artıq yalnız memarlıq və planlaşdırma məsələsi deyil, həm də qlobal problemlərə cavab verən kompleks bir sahəyə çevrilib. Məhz bu kontekstdə WUF13-də sürətli və çox vaxt xaotik urbanizasiya, iqlim dəyişmələri, həmçinin artan sosial bərabərsizlik nəticəsində yaranan müasir dövrün kritik problemləri geniş şəkildə müzakirə olunacaq. Başqa sözlə, Bakı dünyada milyonlarla insanın üzləşdiyi problemlərin həlli üçün əsas mərkəzə çevriləcək.

WUF13- də səsləndiriləcək fikir və təkliflər milyonlarla insanın gündəlik həyatına təsir edən urban problemlərin həllinə yönəlmiş beynəlxalq yanaşmaların formalaşmasına töhfə verəcək. Müzakirələr şəhərlərin daha dayanıqlı, ekoloji cəhətdən balanslı və insanyönümlü şəkildə inkişafına şərait yaradacaq. Və əldə olunan təcrübə və qəbul edilən qərarlar gələcək şəhər planlaşdırılmasında daha səmərəli modellərin tətbiqinə yol açacaq. Bu isə uzunmüddətli perspektivdə şəhər mühitinin keyfiyyətini artıraraq insanların həyat şəraitinə müsbət təsir göstərəcək.

Şübhəsiz, WUF13 Azərbaycanın mövqelərini daha çox möhkəmləndirəcək, nüfuzunu artıracaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dayanıqlı inkişaf, innovativ şəhərsalma və müasir idarəetmə sahəsində regional liderlik nümunəsi nümayiş etdirəcək, qlobal inkişaf naminə yeni beynəlxalq tərəfdaşlıqların formalaşmasına töhfə verəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# *BMT rəsmisi:* "Azərbaycan WUF13 çərçivəsində məsələlərin müzakirəsi üçün mühüm platforma təqdim edəcək"

**"Bu, mənim Qarabağa ilk səfərimdir və bu dəvətə görə Azərbaycan hökumətinə minnətdaram. Fəaliyyət göstərdiyimiz ölkəni yaxından tanımaq, onun tarixini və üzləşdiyi çətinlikləri anlamaq olduqca vacibdir. Eyni zamanda Azərbaycanın sülh istiqamətində apardığı işlər diqqətəlayiqdir və bu səylər beynəlxalq ictimaiyyət tərəfindən tanınır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında diplomatik korpus nümayəndələrinin Şərqi Zəngəzur və Qarabağa səfəri çərçivəsində Xankəndiyə gələn Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident-əlaqələndiricisi vəzifəsini müvəqqəti icra edən İqor Qarafuliç deyib.

Azərbaycanın evsahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumu (WUF13) ilə bağlı da danışan İ.Qarafuliç bildirib ki, hazırlıq işləri artıq aktiv mərhələyə keçib: "Yollar hazırlanır, nəqliyyat və kommunikasiya sistemləri test edilir. Bu, çox mühüm tədbir olacaq".

BMT rəsmisi vurğulayıb ki, Azərbaycan forum çərçivəsində məsələlərin müzakirəsi üçün mühüm platforma təqdim edəcək. "BMT-nin ölkədəki nümayəndəsi kimi əminliklə deyə bilərəm ki, WUF13 böyük uğur qazanacaq", - deyə İqor Qarafuliç əlavə edib.

